www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 fevral 2019-cu il Cümə axşamı № 29 (7199) Qiymətı 60 qəpik

**Xəbər**

**MSK seçki hazırlıqlarına başladı; seçici siyahıları dəqiqləşdirilir**

yazısı səh.7-də

**Gündəm**

## Azərbaycanda zəlzələ xofu - təkanlar təkrarlana bilərmi...



**Qurban Yetirmişli:** "6 baldan yüksək zəlzələnin olacağı gözlənilmir"

yazısı səh.3-də

## Azərbaycanda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi yaradılır

yazısı səh.2-də

## Sabiq icra başçılarının korrupsiya əməlləri - onları bağışlamaq olarmı?

yazısı səh.4-də

## İrəvanın Qarabağla bağlı radikallaşmasının ilginc səbəbləri ortaya çıxır

yazısı səh.11-də

## Xaricdən fərdi qaydada gətirilən hansı mala rüsum ödənməlidir - DGK açıqladı...

yazısı səh.10-da

## Sevgi adı ilə soyğun həftəsi...

yazısı səh.13-də

## Kənd təsərrüfatı texnikasının güzəştli şərtlərlə yeni satış qaydası

yazısı səh.10-da

## Yüzlərlə avtomobilin şüşəsini sındıraraq oğurluq edənlər ələ keçdi

yazısı səh.14-də

## Nobel prospekti bomba sığınacağının üstündədir-iddia

yazısı səh.13-də

## 21-ci əsrə əsa ilə gələn qan davaları

yazısı səh.14-də

## Boşanma fəlakətdir, yoxsa mədəniyyət?

yazısı səh.15-də

# BAKININ "DƏMİR GÜNBƏZİ", "ORBİTER"LƏRİ, "POLONEZ"LƏRİ VƏ ... ERMƏNİSTANDAKI MÜHARİBƏ XOFU

İsrailin Azərbaycana kamikadze-dronların satışına yasağı götürməsi İrəvanı niyə təlaşlandırıb?; Rusiya isə Minskin Bakıya müasir raket komplekslərı satmasından narahat deyil, çünki...




yazısı səh.8-də

# "Freedom House"un sərt hesabatı narazılıq yaratdı

Azərbaycanın "azad olmayan ölkə" adlandırılması böhtan, qərəz kimi dəyərləndirildi

yazısı səh.9-da



Emmanuel Makron

## Fransa prezidentinin ermənipərəst mövqeyi sərt etirazlar doğurdu

yazısı səh.6-da



*Azər Qaraçənli:*

## "Cəmiyyət söyüşə qarşı mübarizəni zorakılığa qarşı mübarizənin tərkib hissəsi kimi aparmalıdır"

yazısı səh.4-də



*Nəzakət Məmmədova:*

## "Gürcüstandan Ermənistana dəhliz verilməsi çoxməqsədli geosiyasi plandır"

yazısı səh.6-da



## Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi yaradılır - prezident fərmanı

**Prezident İlham Əliyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin yaradılması haqqında fərman imzalayıb.**

AzərTAc xəbər verir ki, məqsəd xarici siyasətin ölkəmizin milli maraqları üçün əhəmiyyət kəsb edən istiqamətlərinə dair araşdırmalar aparılmasını genişləndirmək, dünyada baş verən proseslərin hərtərəfli təhlili işini daha da təkmilləşdirmək, Azərbaycanın xarici siyasət prioritetləri, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması üzrə fəaliyyətin əhatə dairəsini artırmaqdır.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi dünyada və regionda baş verən prosesləri təhlil edən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektləri, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparan, bu məsələlərə dair ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılmasında iştirak edən, Azərbaycanın dövlət orqanlarını həyata keçirdiyi elmi-analitik təhlilin nəticələri ilə təmin edən publik hüquqi şəxsdir.

Fərmanda Prezident Administrasiyasına mərkəzin nizamnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək tapşırılıb. Həmçinin Nazirlər Kabinetinə və Ədliyyə Nazirliyinə də müvafiq tapşırıqlar verilib.

## Gəncədə yaşayış binasındakı partlayışdan ziyan çəkmiş sakinlərə yeni bina tikiləcək

**Prezident İlham Əliyev Gəncə şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Gəncə şəhərində yaşayış binasında baş vermiş partlayış nəticəsində ziyan çəkmiş sakinlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə yeni çoxmənzilli yaşayış binasının tikintisi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 3,7 milyon manat ayrılsın.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.


Abunə daha sərfəlidir -
**"Yeni Müsavat" abunə**
kampaniyasını davam etdirir



"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# Azay Quliyev seçicilərini qəbul etdi

**Fevralın 6-da Milli Məclisin deputatı Azay Quliyev Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının inzibati binasında seçicilərini qəbul edib.**

Deputata müraciətlər əsasən məşğulluq, əmək, sosial, təhsil məsələləri, əfv və digər mövzuları əhatə edib. Qəbula gələn seçicilərin problemləri yerindəcə müvafiq qurumlarla əlaqə yaradılaraq həll edilib.



Azay Quliyev bildirib ki, seçicilərini narahat edən məsələləri daim diqqət mərkəzində saxlayır və onların həlli üçün müvafiq işlər görür.

Deputat həmçinin vurğulayıb ki, seçicilərin ona ünvanladığı müraciətləri aidiyyəti qurumlara göndərməklə yanaşı, onların icra vəziyyətini də daim diqqətdə saxlayır.

Məlumat üçün bildiririk ki, Azay Quliyevin rəsmi internet səhifəsində seçicilərin qəbulu üçün onlayn qeydiyyat sistemi (http://azayguliyev.az/qebul.php?cat=112&lang=az) fəaliyyət göstərir. 8 saylı Binəqədi birinci seçki dairəsinin seçiciləri elektron müraciət imkanından yararlanaraq deputatın qəbuluna yazıla bilərlər. Azay Quliyev hər ay mütəmadi olaraq seçiciləri ilə görüş keçirir.



## "Xəzərin statusunun müəyyənləşdirilməsi əməkdaşlığı daha da inkişaf etdirməyə imkan yaradır" - Sergey Lavrov

**Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi əməkdaşlığı daha da inkişaf etdirməyə imkan yaradır.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə ötən il Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın imzalanmasını şərh edən Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib.

"Xəzərin hüquqi statusunun həll olunması Xəzəryanı dövlətlər arasında qarşılıqlı fəaliyyətin keyfiyyətcə yeni səviyyəyə çatdırılması üçün zəmin yaradır", - S.Lavrov qeyd edib.

Xatırladaq ki, ötən il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində beş Xəzəryanı ölkənin rəhbərlərinin görüşü zamanı 22 ildir hazırlanan və region üçün tarixi əhəmiyyətə malik olan Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya təsdiq olunub.



## "Lotu Quli" Türkiyəyə qayıtdı

**2018-ci ilin dekabrında Türkiyədən Azərbaycana ekstradisiya olunan "Lotu Quli" kimi tanınan kriminal avtoritet Nadir Səlifov geri dönüb. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatı "Lotu Quli"yə yaxın mənbə təsdiq edib. Ötən ilin sonunda "Lotu Quli" Bakıya ciddi nəzarət altında gətirilmişdi. Onun yanına yaxın çevrəsinə daxil olan çox məhdud sayda şəxslər buraxılırdı. Həmin günlərdə N.Səlifovun nə vaxta qədər ev dustaqlığında saxlanılacağı bilinmirdi. Məlum olan bu idi ki, N.Səlifovun ekstradisiyasını yüksək rütbəli polis məmurlarından biri həyata keçirib.**

N.Səlifov Azərbaycan həbsxanalarında 22,5 il cəza çəkdikdən sonra 2018-ci ilin oktyabrında azadlığa buraxılıb və dərhal da ölkəni tərk edərək Türkiyəyə yerləşmişdi. Bundan az sonra Rusiya Federasiyası onun barəsində çoxsaylı şikayətlər olduğunu əsas gətirərək, N.Səlifovun Rusiyanın hüquq-mühafizə orqanlarına təhvil verilməsini istəyirdi. Həmin günlərdə o, Azərbaycana gətirilmişdi. 46 yaşlı "qanuni oğru" Nadir Səlifov hazırda postsovet məkanının ən nüfuzlu avtoritetidir. Onun İstanbula geri dönüş etməsi də maraq doğurur. Bu dəfə mühafizəsini gücləndirməsi, ətrafına daha etibarlı şəxslər yığması ilə bağlı məlumatlar var. Rövşən Lənkəranskidən sonra Rusiyada meyvə-tərəvəz imperiyası hazırda "Lotu Quli"nin nəzarətinə keçib. Odur ki, "Lotu Quli"nin bu ölkədəki oliqarxlarla toqquşması, barəsində yerli hüquq-mühafizə orqanlarının hərəkətliliyi də başa düşüləndir.

Xatırladaq ki, N.Səlifov 90-cı illərin əvvəllərində bir sıra səs-küylü cinayətlərin törədilməsində ittiham olunaraq həbs edilmişdi. Həbsindən sonra N.Səlifov uzun illər Gürcüstana ekstradisiya edilməsinə nail olmağa çalışıb. 2018-ci il oktyabrın 24-də Qaradağ Rayon Məhkəməsi vəkilin "Lotu Quli"nin cəzasının şərti cəza ilə əvəzlənməsi haqda vəsatətini təmin edib. Bundan sonra N.Səlifov yaşayış yeri kimi Türkiyəni seçib. Onun Birləşmiş Ərəb Əmirlikləri və Albaniyaya da ara-sıra baş çəkməsi haqda xəbərlər var.

**E.HÜSEYNOV, "Yeni Müsavat"**


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


## "Formula 1" yarışları 2023-cü ilə qədər Bakıda keçiriləcək

**Bakı Şəhər Halqası ilə "Formula 1" Şirkətlər Qrupu arasında yeni müqavilə imzalanıb.**

Musavat.com xəbər verir ki, bununla bağlı təşkil olunan tədbirdə gənclər və idman naziri məlumat verib. O bildirib ki, yeni sözləşmənin müddəti 2023-cü ilə qədər nəzərdə tutulub.

Daha sonra "Formula 1"in baş icraçı direktoru Çeys Keri ilə Azad Rəhimov yeni müqaviləni imzalayıblar.

Qeyd edək ki, Azərbaycan Qran-prisi 2016-cı ildən "Formula 1"in təqviminə daxil olub.

Bu arada Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) 26-28 aprel 2019-cq il tarixlərində baş tutacaq növbəti Azərbaycan Qran Prisinə hazırlıq məqsədilə trekin ətrafına baryerlər quraşdırmağa davam edir.

Bakı sakinlərinin nəzərinə çatdırmaq istərdik ki, indiki mərhələdə Xəqani küçəsinin Puşkin küçəsi ilə Bülbül prospekti arasında olan hissələrinə baryerlər qoyulur. Şəhər sakinlərindən xahiş olunur ki, gecə saatlarında (22:00-06:00) Xəqani küçəsinin bu hissəsində avtomobillərini saxlamasınlar, əvəzində yaxın ərazilərdə yerləşən parklanma yerlərindən istifadə etsinlər.

Əməliyyat şirkəti hamını yeni mövsümdə yenidən "İlin ən yaxşı yarışı" adına layiq bir yarışa ev sahibliyi etmək üçün birgə səy göstərməyə və üzləşilən çətinlikləri anlayışla qarşılamağa çağırır.

**Əli RAİS, Musavat.com**

## "Birgə səylər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı gərginliyin azalmasına səbəb oldu" - KTMT

**Beynəlxalq vasitəçilərin və region ölkələrinin birgə səyləri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı dialoqun fəallaşmasına, həmçinin gərginliyin azalmasına səbəb oldu.**

«Trend»in məlumatına görə, bunu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Birləşmiş qərargahının rəisi general-polkovnik Anatoli Sidorov Yerevan-Moskva-Minsk-Bişkek-Astana videokörpüsü zamanı deyib.

O bildirib ki, Azərbaycan və Errmənistan rəhbərliklərinin müntəzəm görüşləri sülh prosesi üçün zəruri olan şəraitin yaradılmasına və etimadın möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin görülməsi üzrə müəyyən razılaşmaların əldə olunmasına imkan verdi: "Son onilliklər ərzində ilk dəfə olaraq yüksək səviyyədə birbaşa təmas quruldu".

Ermənistan tərəfindən Rusiya istehsallı Su-30SM çoxfunksiyalı qırıcıların alışının KTMT-nin sərhədlərinin təhlükəsizliyinə nə dərəcədə təsir göstərəcəyinə gəlincə, A.Sidorov təşkilatın üzv dövlətlərinin rəhbərləri tərəfindən qəbul edilən qərarı şərh edə bilməyəcəyini vurğulayıb.

Xatırladaq ki, Rusiya və Ermənistan Su-30SM qırıcı təyyarələrinin tədarükü haqqında müqavilə bağlayıblar.

YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019

# Azərbaycanda zəlzələ xofu - təkanlar təkrarlana bilərmi...

**Qurban Yetirmişli:** "6 baldan yüksək zəlzələnin olacağı gözlənilmir"

**Fevralın 5-də Azərbaycanda zəlzələ baş verib. Ən güclü təkanlar Şamaxıda hiss edilib. Nəticədə bir neçə evə və məktəbə ziyan dəyib. Saat 23:31-də Pirqulu stansiyasından 11 km cənub-qərbdə, İsmayıllı rayonu ərazisində, 8 km dərinlikdə zəlzələ qeydə alınıb. Zəlzələ episentrdə 6 bal, ətraf rayonlarda 5.3 bala qədər hiss olunub.**





Təkanların təkrarlanacağından qorxan bəzi insanlar gecəni küçədə keçirməyə qərar veriblər. Zəlzələ nəticəsində rayonun Şamaxı rayonunun Şəhriyar qəsəbəsində bir yaşayış evində dağıntı baş verib. Dağıntılar zamanı 6 nəfər xəsarət alaraq xəstəxanaya yerləşdirilib. Şamaxı rayonunda təbii fəlakət nəticəsində baş vermiş dağıntılarla əlaqədar fövqəladə komissiya yaradılıb. Daha çox dağıntı rayonun Qəleybuğurt, Qızmeydan və Nağaraxana kəndlərində qeydə alınıb.

Həmin kəndlərdə səyyar tibb məntəqələri qurulub. Dağıntılar zamanı xəsarət alanların sayının artdığı və onların əksəriyyətinə ambulator yardım göstərildiyi bildirilir. Təhlükəsizliyə görə dağıntı baş vermiş ərazilərdə qazın verilişi tamam dayandırılıb.

Dağıntılarla əlaqədar yaradılan fövqəladə komissiyanın və Şamaxı Rayon İcra Hakimiyyətinin nümayəndələri icra başçısının rəhbərliyi ilə dağıntılar və fəsadlar olan yerlərə baxış keçiriblər.

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov da hadisə yerinə baş çəkib. Onun verdiyi məlumata görə, zəlzələ zamanı ölüm faktı olmayıb:** "Yalnız 3 nəfər həyəcanlanıb, hadisə yerindən uzaqlaşmaq istəyərkən xəsarət alıb. Hazırda həmin şəxslərin müalicəsi davam edir. Ümumiyyətlə, belə təbii fəlakət zamanı fəsadların cüzi, itkinin isə olmaması yaxşı haldır. Heç bir evdə böyük uçqun halı qeydə alınmayıb. Yalnız evlərin divarlarında, yəni içəridən və çöldən çatlar və dağıntılar olub".

**Nazirin sözlərinə görə, prezident İlham Əliyev zəlzələnin fəsadlarının araşdırılması və aradan qaldırılması ilə bağlı tapşırıq verib:** "Ölkə başçısının tapşırığına əsasən, rayon Fövqəladə Hallar Komissiyası ilə birlikdə Ağsu, İsmayıllı və Şamaxı rayonlarında işlər aparılacaq. Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondunun könüllüləri bu işdə yaxından iştirak edəcəklər. Rayon icra hakimiyyətinin əməkdaşları da sakinlərə vaxtında kömək edib və lazımi yerlərdə yerləşdirməyə şərait yaradıblar".

Qeyd edək ki, qəzalı vəziyyətdə olan evlərin sakinləri başqa evlərdə müvəqqəti yerləşdiriləcək. Evlərin təmir bərpa işlərinin aparılması üçün dövlət tərəfindən yardım olunacaq.

**Fevralın 6-da Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli mətbuat konfransı keçirərək, ölkə ərazisində təkrar zəlzələnin baş verə biləcəyindən danışıb:** "Dünən 23:21-də İsmayıllı, Şamaxı rayonlarında ard-arda baş verən ərazidə gərginliyin olduğu məlum idi. Həmin ərazidə gərginlik həmişə var. 2018-ci il seysmik xəritəsində həmin bölgə ən aktiv zona kimi müəyyən edilmişdi. Bu zəlzələni orta güclü zəlzələ hesab etmək olar. 23:31-də baş verəcək zəlzələnin maqnitudası, yeri barədə dəqiq məlumat verə bilməzdik. Orta müddətli proqnozu dəfələrlə vermişik. Lakin bunu ictimaiyyətə yaymaq doğru deyil. Dünən insanların hadisə zamanı qaçarkən xəsarət alması əhalinin buna hazır olmadığını göstərir".

**Q.Yetirmişli bildirib ki, fevralın 5-də gecə saatlarında Azərbaycan ərazisində iki hiss olunan zəlzələ oldu:** "Ondan əvvəl Lerikdə 3 bala qədər hiss olunmayan zəlzələ olmuşdu. Birincinin maqnitudası 4.4 bal idi, qırılma boyu həmin əraziyə 3 km məsafədə maqnitudası 5.2 idi, bu da 6 bal gücünə uyğun gəlir. Bu zəlzələ cənub qərb bölgəsi üçün xarakterik idi. Bu ərazidə zəlzələ 8, 10, 12 km dərinlikdə baş verib. İkinci təkan insanları təlaşa salmışdı, evlərdə çatlar əmələ gəlmişdi. Biz fevralın 6-da tezdən fövqələdə vəziyyəti nəzərə alaraq vertolyotla zəlzələ bölgəsində olduq. Evlərdə baş verən çatları yerində müşahidə etdik. Çatlar əsasən keyfiyyətsiz tikinti materiallarından istifadə edilən, çay daşlarından tikilən evlərdə müşahidə edilib. Hazırda əməkdaşlarımız hadisə bölgəsində tədqiqat aparır. Zəlzələ ocağındakı proseslər, ocaqdakı vəziyyəti düzgün araşdırmaq üçün əlavə mobil stansiyalar quraşdırılıb. Afterşokların hansı istiqamətdə miqrasiya etməsini araşdırmaq üçün tədqiqatlar aparırıq. Bir neçə gün əməkdaşlarımız tərəfindən enerjinin miqrasiya etməsi, gərginliyin vəziyyətini müşahidə ediləcək".

**Baş seysmoloqun sözlərinə görə, fevralın 5-də baş verən zəlzələdən sonra təkrar zəlzələlər qeydə alına bilər, lakin 6 bal gücündə təkrar zəlzələnin olması gözlənilmir:** "Birinci zəlzələdən sonra 130-dan çox afterşoklar olub, onların bir neçəsinin maqnitudası 3 bal və bir az çox olub. Bu rayon ən aktiv seysmogen zonadır. Həmin ərazidə həm çoxlu təkanlar baş verir, həm də ayrılan enerji daha çox olur. İsmayıllı və Şamaxıda dağəmələgəlmə prosesi hələ də aktiv mərhələsindədir, proses hələ davam edir. İnsanlar təlaşa düşməsinlər. İki zəlzələdən sonra hiss olunmayan afterşoklar prosesin davam etdiyini göstərir. Bu o deməkdir ki, enerji parçalanması gedir, gərginlik azalır. Hiss olunan zəlzələ təkrar ola bilər. Lakin 6 baldan yüksək zəlzələnin olacağı gözlənilmir. Zəlzələ nəticəsində rəsədxanaya ziyan dəyməyib. Bizim Pirquludakı stansiyamızın binasında çatlar yaranıb".

**Bakıda zəlzələnin hiss edilməsinə gəlincə, seysmoloq vurğulayıb ki, dünən baş verən zəlzələ əsasən Bakının Xətai, Nəsimi, Yasamal rayonlarında hiss olunub:** "Paytaxtın bəzi ərazilərində zəlzələnin hiss olunması, bəzilərində hiss olunmaması həmin ərazilərin seysmik aktivliyi ilə bağlıdır. Bakıda bəzi ərazilərdə eyni binada zəlzələyə davamlılıq fərqlidir. Bəzi binaların bir qolunun yerləşdiyi ərazidə maksimum 8, digər hissəsində 9 bal gücündə zəlzələ qeydə alına bilər. Ona görə də tikinti aparılarkən hər bir ərazinin seysmikliyi dəqiqləşdirilməlidir. Bəzən eyni yerdə seysmik aktivlik fərqli ola bilir".

**Seysmoloji Xidmət Mərkəzinin direktoru onu da diqqətə çatdırıb ki, zəlzələdən sonra Şamaxı, Qobustandakı vulkan ocaqlarında aktivliyin qeydə alınması gözləniləndir:** "Bu zəlzələ həm də vulkandakı proseslə bağlıdır. Zəlzələnin palçıq vulkanları ilə əlaqəsi araşdırılır. Əgər vulkanda hazırlıq, sıxılma prosesi baş verirsə, o, partlayışla püskürməlidir. Təcrübə göstərir ki, vulkana yaxın ərazilərdə zəlzələ baş verəndən sonra püskürmə baş verir. Püskürmə əsasən 1-2 gün sonra müşahidə edilir. Bizim əməkdaşlarımız ərazidəki vulkanlardakı gərginliyin hansı səviyyədə olduğunu müşahidə edirlər".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Prezident Nazirlər Kabinetinin meşələrlə bağlı son qərarını ləğv etdi

## NK-nın meşədən yığılan meyvəyə, bitkiyə görə cərimələri artırması vətəndaşlarda narahatlıq yaratmışdı



**Prezident İlham Əliyev yerlərdən daxil olan müraciətləri nəzərə alaraq, Nazirlər Kabinetinə "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" 1993-cü il 27 dekabr tarixli 636 nömrəli qərara dəyişikliklərin ləğv olunması barədə göstəriş verib.**

Musavat.com xəbər verir ki, bu barədə AzərTAc məlumat yayıb.

Qeyd edək ki, meşə təsərrüfatında meyvələri qanuni əsas olmadan əldə edən şəxs həmin məhsulu geri qaytarmalıdır.

Bu mümkün olmadıqda, dəymiş zərərin məbləği hüquq pozuntusu baş vermiş tarixdə dövlət tərəfindən tənzimlənən qiymətlərə, dövlət tərəfindən tənzimlənmədiyi hallarda isə sərbəst satış qiymətlərinə uyğun hesablanaraq ödənilir.

Nazirlər Kabinetinin qərara etdiyi dəyişikliklər meyvələrin və bitkilərin qanuni əsas olmadan əldə edilməsinə görə ödənişlərin nəzərəçarpacaq dərəcədə artırılmasını nəzərdə tuturdu.

Nazirlər Kabinetinin (NK) "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" yeni qərarı ölkə ictimaiyyətində birmənalı qarşılanmamışdı. İnsanlar bildirirlər ki, meşədən yığılan meyvəyə, bitkiyə görə cərimələrin tətbiqi absurddur. Xüsusən dağ rayonlarında yaşayan minlərlə insan bundan dolanışıq kimi istifadə edir.

Məlumat üçün bildirək ki, NK-nın artıq ləğv olunan qərarında Azərbaycanda qadağan edilmiş ərazilərdə meşə sərvətlərinin tədarükü və yığılması nəticəsində meşə təsərrüfatına vurulmuş zərərə görə - yabanı (cır) meyvələr (alma, armud, zoğal, alça və s) üçün 1, peyvənd meyvələr (alma, armud, zoğal, alça və s) - 2, itburnu - 2, çaytikanı - 3, digər dərman bitkiləri - 2, şabalıd - 2, fındıq -2, qoz - 3, fıstıq toxumu -1,5, palıd - 1, cökənin yığılmasına görə -1,5 manat cərimə nəzərdə tutulurdu.

Dövlət Statistika Komitəsinin hesabatında qeyd olunur ki, ötən il Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamenti Azərbaycanın 42,3 min hektar meşə fondu torpaqlarına xidmət göstərib, o cümlədən 10,2 min hektarda meşəbərpa tədbirləri aparılıb:

"Görülən tədbirlər çərçivəsində 2,5 min hektar sahədə yeni meşə ağacları əkilib, o cümlədən 36,1 hektar sahədə meyvə, ağac və kol cinslərinin toxumları səpilib və 7,7 min hektar sahədə meşələrin təbii bərpasına kömək tədbirləri həyata keçirilib. Bundan başqa, 46,9 min hektar meşə fondu torpaqlarında birdəfəlik suvarma işləri aparılıb.

Ümumilikdə 2018-ci ildə meşə ilə örtülü sahələrdən 59,7 ton meyvə, ağac və kol cinsləri toxumları tədarük edilib ki, bunların da 14,5 tonu qoz, 3,1 tonu şabalıd, 2,5 tonu ərik, 1,7 tonu badam, 1,2 tonu şaftalı, 0,5 tonu gilas, 0,3 tonu xurma, 0,1 tonu fındıq toxumlarının payına düşüb".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019

# "Söyüş söyənlər fikrini ifadə edə bilməyən aqressivlərdir"

## Azər Qaraçənli: "Cəmiyyət söyüşə qarşı mübarizəni zorakılığa qarşı mübarizənin tərkib hissəsi kimi aparmalıdır"



**Son illərdə özünü "radikal müxalifət" adlandıranlar, xüsusilə Avropaya sığınmış bəlli bir kəsim söyüş söyməyi az qala adi hala çevirib. Bir zamanlar Qərb filmlərində, mahnılarında, müəyyən bir zamanda isə Qərb siyasətçilərinin leksikonunda rast gəlinən söyüş indi siyasətə transformasiya olunmaqdadır.**

Söyüş tendensiyasında sosial şəbəkələrin xüsusi rolu danılmazdır. Heç bir cəza mexanizmi olmadığına arxayınlaşan insanlar youtube, facebook üzərindən məmurlara, ayrı-ayrı şəxslərə ən ağır hədyanlar, ibarələr yağdırmağa başlayıblar.

Kimlərsə buna "azadlıq" donu geyindirməyə çalışsa belə, əsas amil siyasi mübarizəni mədəni şəkildə aparan siyasətçilərin tədricən meydandan çəkilməsi ilə əlaqəlidir.

Hətta son prezident seçkiləri ərəfəsində YAP-çı deputat Siyavuş Novruzov partiya sədrlərinə səslənərək bildirmişdi ki, biz siyasi mübarizədə heç vaxt onları və ailələrini təhqir eləməmişik, bizi, iqtidarın ən yüksək eşelonunda olan şəxsləri aşağılayanları bir durdurun.

Ola bilsin ki, indi dəbdə olan söyüş mübarizəsi zamanla özü lazımsızlaşacaq və siyasi arenanı tərk edəcək.

İndiki halda isə trendə çevrilmiş proses davam edir, təkcə siyasətdə yox, adi insanlar da hansısa ictimai məsələni müzakirə edəndə bir-birini təhqir etməkdən çəkinmirlər.

**Jurnalist-psixoloq Azər Qaraçənli** "Yeni Müsavat"a dedi ki, "söyüş və cəmiyyət" yeni mövzu deyil və belə məsələlər onu çox-çox qabaqlar da düşündürüb: "Bu mövzuda şəxsi arxivimdə qeydlərim də var. "Təkrar biliyin anasıdır" prinsipi ilə həmin qeydlərə qayıtsam, yenə eyni qaydada deyə bilərəm ki, söyüş aqressiyanın bir növüdür.

O, verbal (sözlü) aqressiyalara aiddir və qeybətdən, dedi-qodudan fərqli olaraq birbaşa, açıq-aşkar, əzabverici susqunluqdan fərqli olaraq aktiv, fəal aqressiyadır.

Söyüş həm də xalis aqressiyadır. Yəni zorakılıq naminə zorakılıqdır. Tutaq ki, girovları azad eləməyə çalışan polisin gülləsi də zorakılıqdır, ancaq burada aqressiya məqsəd deyil, vasitədir.

Söyüşdəsə aqressiv davranışın xətər yetirməkdən, insanı yaralamaqdan başqa bir məqsədi yoxdur. Burada aqressiya həm məqsəd, həm vasitədir".

**A.Qaraçənlinin zənnincə, söyüş fikir deyil, emosiyadır:** "O, sözdən ibarət olsa da, fikri ifadə eləmir. Ona görə də fikrini ifadə eləməyə çətinlik çəkən, yaxud ifadə eləməyə fikir tapmayan adamlar tez-tez söyüşə üz tuturlar.

Deməli, söyüş təkcə aqressiyanın deyil, həm də fikri-fəlsəfi-filoloji problemlərin nəticəsidir. Və söyüşün ictimai polemikalar səviyyəsində artması da cəmiyyətdə öz fikrini ifadə eləməyə çətinlik çəkən aqressiv adamların fəallaşması, sözün kəsərini onun arxasında mənalı fikir dayanmaya-dayanmaya gücləndirmək üsullarının genişlənməsi deməkdir.

Cəmiyyət söyüşə qarşı mübarizəni zorakılığa qarşı mübarizənin tərkib hissəsi kimi aparmalıdır. Nəzərdən qaçırmaq olmaz ki, söyüş də zorun bütün növləri kimi cəmiyyətin müqavimət qabiliyyətini sınağa çəkir və onu zəif görəndə, əlbəttə ki, daha da güclənir, birinin üstünə beşini qoyur".

**A.Qaraçənlinin düşüncələrinə görə, söyüş - mənalı fikir söyləməyi bacarmayan insanın öz daxili boşluğuna qarşı qiyamıdır:** "İnsan həmişə birinci özünü, öz istedadsızlığını, savadsızlığını, öz mənəvi zəifliyini söyüb sonra başqasını söyür.

İnsanın dilinə gətirdiyi söyüşün şiddəti onun daxilən duyduğu mənəvi zəifliyə qarşı keçirdiyi hiddətə bərabər olur.

Özünü söymədən başqasını söymək insanın imkanı xaricindədir. Çünki insan başqasına üz tutmamışdan əvvəl özünə üz tutur, öz içində söz axtarır, fikir axtarır.

Özü də heç kim, heç kim (!) ən əvvəl söyüş axtarmır. Hamı əvvəlcə sanballı, tutarlı bir fikir axtarır. Və bu axtarışdan əliboş, içinə tüpürüb çıxan adamı tanımaq çətin deyil: o, çöldə də tüpürür.

Bu axtarışdan narazı, acıqlı qayıdan adamların içinə münasibəti çölünə vurur: onlar çox narazı, acıqlı görünürlər. Mən inanıram ki, hər bir söyüşə söyüşsüz, sanballı və sanballı olduğuna görə də sərt olan cavabı vermək mümkündür".

❑ **Emìl SALAMOĞLU, "Yenì Müsavat"**

**Bu gün adları qarşısında sabiq yazılan məmurların əməlləri haqda mətbuatda vaxtilə çox yazılıb. Ümumdünya axtarış sistemlərində adlarını yazıb məlumat toplamaq kifayətdir ki, buna əmin olasan.**

# Sabiq icra başçılarının korrupsiya əməlləri - onları bağışlamaq olarmı?

## Onların adları illərlə ən müxtəlif qanunsuz əməllərdə hallansa da, rahatdırlar və cəzalanmayacaqlarını düşünürlər


Xələddin İsgəndərov


Ramiz Yediyarov


Razim Məmmədov

Bu yazıda sabiq başçıların korrupsiya əməlləri və bu günləri haqda yazacağıq. Binəqədinin sabiq icra başçısı Xələddin İsgəndərov, Tovuzun sabiq icra başçısı Tofiq Zeynalov, Gədəbəyin sabiq icra başçısı Ramiz Yediyarov, Xətainin sabiq icra başçısı Razim Məmmədov belə məmurlardandır.

Xələddin İsgəndərovu vəzifədə olduğu müddətdə bir çoxları "ev sökən" başçı kimi tanıyırdı. İllərlə mətbuat onun əlaltılarının Binəqədi ərazisindəki kənd və qəsəbələrdə "evsökmə əməliyyatları" haqda xəbərlər yazıb.

Sabiq vergilər naziri Fazil Məmmədova arxalanan Xələddin İsgəndərov Binəqədi rayonunda qeyri-rəsmi ağac kəsmələr, torpaq zəbti, hasarlanması işlərinə rəhbərlik edirdi. Rayona illərlə ayrılan milyonlarla büdcə vəsaitini də Xələddin İsgəndərov özünün şəxsi vəsaiti kimi xərcləyirdi. Vəzifədən gedəndən sonra isə Xələddin İsgəndərovun yolunun istintaq orqanlarından keçməsi xəbərləri yayılmışdı. Bu günə qədər yayılan məlumatlar təsdiqini tapmasa da, təkzib də olunmayıb. Xələddin İsgəndərov hazırda doğulub boya-başa çatdığı Goranboyun Xanqərvənd kəndində yaşayır, tez-tez Göygöl rayonunun Mixaylovka kəndindəki malikanəsinə baş çəkir. Bakıdan uzaq olan bu ünvanlarda Xələddin İsgəndərov icra başçısı postunu tutarkən sah saraylarını xatırladan mülklər inşa etdirib. Bu gün Xanqərvənddə, Xələddin İsgəndərovun yaşadığı ata mülkü onun vəzifədə olarkən necə varlanmasını əks etdirən tikililərdəndir. Belə tikililərin isə sayı bir deyil, beş deyil...

Gədəbəyin işdən çıxarılan icra başçısı Ramiz Yediyarov da pis əməllərinə görə Xələddin İsgəndərovdan geri qalmayıb. Onun Gədəbəyə rəhbərlik etdiyi dövr ərzində rayonda baş vermiş, lakin sona qədər araşdırılmamış cinayət ortadadır.

Ramiz Yediyarov da sabiq vergilər naziri Fazil Məmmədova sitayiş edirdi. Onun gözünə xoş görünən torpaq sahələrini, xüsusilə perspektivli əraziləri ələ keçirirdi. Bu sırada Şəmkir və Gədəbəy rayonları arasında yerləşən Yasamal dağında təxminən 30 hektarlıq bir ərazi də var. Geniş meşə massivi olan ərazidə vaxtilə sakinlər istirahət edib. Yediyarovun və bu gün də Şəmkirin icra başçısı olan Alimpaşa Məmmədovun "yüngül əli" ilə "Yastı meşəsi" adlanan istirahət zonası da F.Məmmədovun saysız-hesabsız obyektlərindən birinə çevrilib. Gədəbəyin mərkəzində yerləşən bazar da sabiq vergilər nazirinin "sinəsinə yatan" yerdə yerləşdiyindən 2013-cü ildə Ramiz Yediyarov həmin bazara da əl qoyub. Əvvəlcə rayonun kənarında, əkin-biçin sahələrinin ortasında, ən başlıcası isə pay torpağında bazar tikilib. Qanunsuz inşa edilən bazara sahibkarların köçmələri təklif olunub. Lakin Gədəbəyin mərkəzində yerləşən bazarın icarəçi-sahibkarları son dərəcə əlverişsiz olan təklifdən imtina ediblər. Günlərin birində isə R.Yediyarovun bazarın köçürülməsi planının gerçəkləşməsi üçün orada elə bir yanğın olub ki, 10 dəqiqənin içində bazar kibrit qutusu kimi yanıb külə dönüb.

Yediyarovun yanğından dərhal sonra ortaya atdığı qısaqapanma versiyası ilə icarəçi sahibkarlar razı deyildilər. Bildirirdilər ki, naqillərin yanmasından bazarın 10 dəqiqənin içində kül olması mümkün deyildi. Bazarda plastik işləmələr də yox idi ki, o cür gur alovlanma baş versin. Sanki bazara benzin və ya digər tez alışan maye səpmişdilər ki, 1 anın içində külə dönsün, heç kim malını oradan çıxara bilməsin. Sakinlər o zaman deyirdilər ki, məqsəd bazarın icarəçilərini müflisləşdirib bazardan çıxarmaq və güzəştli şərtlər qarşılığında onları Ramiz Yediyarovun qanunsuz inşa etdiyi rayon kənarındakı bazara köçürmək olub. Belə də olmuşdu. Ramiz Yediyarovun bazar planı yanğından sonra gerçəkləşmişdi. 4 il YAP-ın rayon təşkilatının sədri olmuş Ramazan Muradov da o dövrdə mətbuata açıqlamasında demişdi ki, bazar yandırılıb! Yandırılan bazar rayonun mərkəzində yerləşirdi və uzun illər ərazi istifadəsiz qalmışdı. Fazil Məmmədov ərazini 2017-ci ildə quda olduğu Namiq Əliyevə peşkəş etmişdi. Əgər Fazil Məmmədov, ardından Ramiz Yediyarov vəzifələrindən çıxarılmasaydılar, Namiq Məmmədovun burada çoxmərtəbəli bina tikdirəcəyi deyilirdi. Ramiz Yediyarovun Gədəbəydəki torpaq maxinasiyaları bununla bitmir. Rayonun Söyüdlü kəndinin kənarındakı örüş sahələri Ramiz Yediyarovun əli ilə satılıb. Nazirlər Kabinetinin qərarına görə isə həmin ərazilər sırf örüş üçün nəzərdə tutulur. Ramiz Yediyarov isə örüş sahəsini təyinatı dəyişdirilmədən 38 nəfərə satıb.

Bu gün Ramiz Yediyarov öz kefindədir, vaxtilə topladığı milyonları xərcləyib həyatını sürür. Onu əməlləri isə ortadadır, araşdıran da yoxdur.

Tovuz sabiq başçısı Tofiq Zeynalov da hazırda istirahət edir. Boş vaxtlarında xarici telekanalları izləyir. Özünün mətbuata verdiyi açıqlamadan belə aydın olur ki, dünyada baş verən proseslərlə maraqlanır. Onunla, daha doğrusu, vəzifədə olduğu müddətdə yol verdiyi nöqsanlarla maraqlananlar haqda isə xəbər yoxdur. Onun icra başçısı olduğu zamanlarda qudası Mahir Həsənovun "Qovlar Təmir Tikinti" MMC vasitəsilə dövlətdən ayrılan milyonlarla manat vəsaitin necə xərclənməsi və rayondakı bütün abadlıq, tikinti, təmir işlərinin məhz bu şirkətə verilməsi ilə bağlı məlumatlar vardı. Yazılanlardan məlum olurdu ki, 2012-ci ildən Tovuza daxili büdcədən və dövlət büdcəsindən ayrılan milyonlar "Qovlar Təmir Tikinti" MMC-yə ötürülüb. Həmin məbləğ isə nə az, nə çox, 70 milyon manat olub.

2012, 2013, 2014-cü illərdə Tovuz şəhərinin abadlaşdırılması üçün "Qovlar Təmir Tikinti" MMC-yə üst-üstə 9,7 milyon manat vəsait ayrılıb. Həmin illərdə Tovuzda yaşayış mənzillərinin tikintisi, binaların fasadlanması, mənzil fondlarının dam örtüyünün dəyişdirilməsi işlərinə isə ümumilikdə 20 milyondan çox vəsait xərclənib. Rayondakı kənd yollarının və şəhər küçələrinin yenidən asfaltlanması işləri üçün isə MMC-yə 30 milyon manat ötürülüb.

Tovuza ayrılan 100 milyon manatdan artıq vəsaitin qarşılığında rayonda əhəmiyyətli dəyişiklik nəzərə çarpmayıb. Tofiq Zeynalov isə istirahət edir, özünün böyük alma bağında sərbəst gəzir.

Xətai Rayon İcra Hakimiyyətinin sabiq icra başçısı Razim Məmmədov səksəkə içindədir. Onun Tofiq Zeynalov kimi rahat günlər keçirməsi hələ ki sual altındadır. Sabiq başçının qandallanmaq qorxusu qardaşı Mübariz Məmmədov işdən azad olunandan sonra bir qədər də artıb. Razim Məmmədovun qardaşı Mübariz Məmmədov Vergilər Nazirliyinin 3 saylı Ərazi Vergilər İdarəsinin Kiçik sahibkarlıqla iş şöbəsinin rəisi vəzifəsini tuturdu. R.Məmmədov ötən il dekabrın 13-də Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad olunandan sonra M.Məmmədovun da kreslosu laxlamışdı. Razim Məmmədovun vəzifəsindən çıxarılmazdan bir neçə gün əvvəl Bakı Ağır Cinayətlər Məhkəməsində onun əmisi oğlu, uzun illər Xətai rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəis müavini işləmiş Xalid Məmmədovun cinayət işi üzrə məhkəmə araşdırması başlanmışdı.

Razim Məmmədov oliqarxlaşmış məmurlardan idi. Oğlu 300 min dollar dəyərində avtomobildə gəzir, özü Xətaidə torpağı kvadrat metrlə satırdı. Belə bir aşkar korrupsiya sxemi Razim Məmmədovun 12 illik karyerası dövründə davam edib. Vəzifədən azad edildəndən sonra əmisi oğlunun məhkəməyə çəkilməsi, qardaşının işdən çıxarılması olduqca maraqlı gəlişmələrdir. Mümkündür ki, Razim Məmmədov digər sabiq həmkarları kimi illərlə çapıb-taladıqlarını rahatlıqla xərcləyə bilməsin, ona bu şansı tanımasınlar.

❑ **E.HÜSEYNOV, "Yenì Müsavat"**

# "Azərbaycan Ermənistandan təzminat ala bilər"

## Politoloq: "Nəinki ermənilərdən, Rusiyadan da təzminat ala bilərik"

**Azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımına və qırğınlara görə Ermənistanın təzminat ödəməsinin mümkünlüyü məsələsi yenidən gündəmə gəlib.**
**Dünyada belə faciələr törətdiyinə görə xeyli ölkə təzminat ödəyib. 6 milyon yəhudini məhv edən Almaniyanın indinin özündə belə təzminat ödədiyi önə çəkilir.**



2016-cı ildə İsrail doqquz Türkiyə vətəndaşının həyatını itirdiyi Mavi Mərmərə basqını üçün ödəməyi qəbul etdiyi 20 milyon dollarlıq təzminatı Türkiyə Ədliyyə Nazirliyinin hesabına köçürüb.

Haaqa tribunalında keçmiş Yuqoslaviyadan olan hərbi cinayətkarların layiqli cəzalarını aldıqları da faktdır.

Bütün bunların fonunda Azərbaycan tərəfin Ermənistanı təzminat masasına oturtmaq üçün nə etməli olduğu yönündə fərqli fikirlər səslənir.

**Siyasi ekspert Nəzakət Məmmədova Ermənistanı təzminat ödətməyə məcbur etmək üçün kifayət qədər imkanların olduğunu düşünür:** "Bu mümkündür. O halda ki, müvafiq beynəlxalq məhkəmənin qərarı olsun, soyqırım törətmiş canilər beynəlxalq tribunalda mühakimə edilsinlər, barələrində hökm çıxarılsın.

Bunun üçün müvafiq beynəlxalq normativ sənədlər, konvensiyalar, mexanizmlər mövcuddur. 1948-ci ilin dekabrında BMT Baş Assambleyası Soyqırım cinayətlərinin qarşısının alınması və buna görə cəzalandırılma haqda Konvensiya qəbul edib. Azərbaycan xalqına qarşı soyqırım törədildiyini bütün dünya bilir və biz bu cinayətə görə nəinki Ermənistandan, Rusiyadan da təzminat ala bilərik. 366-cı alay Rusiya Silahlı Qüvvələrinə məxsus olub və dövlət öz silahlı qüvvələrinin törətdiyi cinayətlərə görə cavab verməlidir. Orada Rusiya vətəndaşları, hərbi qulluqçuları ermənilərlə əlbir iştirak edib. Soyqırıma görə bu dövlətlərdən reparsiya tələb oluna bilər. Bu, canlı insan tələfatına və daşınar-daşınmaz əmlaka görə ödənilməli olan təzminatdır. Çünki soyqırım zamanı insanlar öldürülüb, eyni zamanda onların əmlakı yağmalanıb, talan edilib. Öldürülmüş insanları həyata qaytarmaq mümkün olmasa da, pul təzminatı ödəməklə soyqırım törətmiş dövlət bu cinayətə məruz qalmış toplumun demoqrafik cəhətdən dirçəldilməsi, sayın bərpası, habelə vurulmuş maddi zərərin qarşılanması məqsədi daşıyır. Yəhudilər artıq Almaniya dövlətindən, habelə bir sıra nəhəng korporasiyalardan təzminat almağa nail olublar. Məsələn, hətta soyqırım prosesində bilavasitə iştirak etməsə də, yəhudiləri və digər millətdən olan əsirlərin əməyindən qarşılıqsız kölə əməyi kimi istifadə edən "Nestle", "BMW", " Coca Cola", "Hugo Boss", " Bayer" kimi beynəlxalq şirkətlər külli miqdarda təzminat ödəyiblər və üzr istəyiblər. Biz də bu təcrübədən istifadə edib nəinki soyqırım törətmiş, habelə girovluqda və əsirlikdə olarkən insanlarımızın əməyindən qul kimi istifadə etmələrinə görə Ermənistanın bu işdə əli olan şəxslərinin cəzalandırılmasını tələb edə bilərik. Ermənistan beynəlxalq öhdəliklərə imza atıb, müvafiq konvensiyalara qoşulub. Müharibə qanunlarının pozulmasına görə cavab verməlidir. Ermənistan Üçüncü Reyxdən, faşist Almaniyasından daha qüdrətli dövlət deyil ki?! Əgər alman faşistləri cəzalandırıldısa, erməni faşistləri də cəzalanmalıdır. Sual oluna bilər ki, indiyədək bu niyə baş verməyib. Azərbaycanın soyqırım canilərinin cəzalandırılmasını tələb etməyə tam mənəvi, hüquqi, siyasi haqqı var və onların cəzalandırılmasına gücü yetər. Hadisələrin şahidləri sağdır, həddindən artıq istintaq materialları, dəlil-sübutlar toplanıb. Sadəcə, hər zaman olduğu kimi bu məsələdə də beynəlxalq siyasətdə kök salmış ikili standartlar, siyasi maraqlar buna mane olub. Yuqoslaviyada soyqırım törədənlər o vaxt məhkəmə qarşısına çıxarıldı ki, Rusiya oradan uzaqlaşdırıldı. Onlarla əlbir olanlar, Rusiyanın geosiyasi maraqlarının zorakılıq yolu ilə icraçıları, qatil generallar, digər hərbçilər onun himayəsindən məhrum oldular. O zaman Qərb onları tribunalda mühakimə edə bildi. Biz ötən il Ermənistanda oxşar prosesləri müşahidə etdik. Soyqırımda iştirak edən Köçəryan, Babayan kimi caniləri Amerikanın göstərişi ilə Paşinyan həbs etdirdi. Onlar da Rusiyanın böyük geosiyasi planlarının zorakı icraçısı olublar və dinc insanlarımıza qarşı soyqırım bu siyasətin bir hissəsi olub. Lakin hazırda Ermənistan rəhbərliyi həmin şəxsləri konstitusiya quruluşunun zorakılıqla dəyişdirilməsinə görə mühakimə edir, onlar Rusiyanın dəstəyindən məhrum oluna bilər, əvvəlki hökmləri qalmayıb və biz də bundan istifadə edə bilərik".

**Politoloq təzminatın təkcə pul şəklində olmadığını da qeyd etdi:** "Ermənistan Azərbaycandan üzr istəməli, onların dərsliklərində bu barədə yazılar olmalıdır. Çünki cinayətkarın cəzalandırılması problemi tam həll etmir, həm də gələcək cinayətlərin qarşısı alınmalıdır. Bunun üçün cinayət törətmiş millətin uşaqları bu hadisənin bir daha törədilməməsi üçün sivil ruhda tərbiyə olunmalıdır. Ən əsası, Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa olunmalıdır. Biz təkcə Xocalıya görə yox, 1918-ci il Bakı, Quba soyqırımlarına görə də erməniləri ittiham etməliyik. Necə ki, ermənilər guya 1915-ci ildə yalançı "soyqırım" davası aparırlar. Yalançı 1915 varsa, həqiqi 1918 var. Yalançı 1988 Sumqayıt varsa, həqiqi 1992 Xocalı, Qaradağlı faciələri də var. Sirr deyil ki, həm Köçəryan, həm də Sərkisyan Qarabağda vuruşmuş bir sıra quldur erməni komandirləri kimi Rusiya Baş Kəşfiyyat İdarəsinin agentləri olmuşlar. Bu gün Ermənistanda baş verənlər ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi ilə Pentaqonun Rusiya Baş Kəşfiyyat İdarəsinə qarşı Soyuq müharibə dövründə olduğu kimi növbəti nüfuz savaşıdır. Bu gün Ermənistanda haqq-hesab çürüdülür və əsas odur ki, dünən hökm verən bu gün can verir. Odur ki, həm öz xalqına, həm dinc azərbaycanlılara qarşı cinayət törətmiş şəxslərin arxasından Rusiya çəkilən kimi onların beynəlxalq tribunala yolu görünəcək. Yaxın və orta gələcəkdə ABŞ-Rusiya savaşı Cənubi Qafqazda bir sıra proseslərin taleyini həll edəcək, o cümlədən, soyqırım canilərinin..."

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Şahin Hacıyev "erməni soyqırımı qurbanları" abidəsini niyə ziyarət edib?

## Redaktor ora müsahibə üçün getdiyini yazır, amma...

**Xəbər verdiyimiz kimi, öz işçi qrupu ilə birlikdə Ermənistanda səfərdə olan "Turan" informasiya agentliyinin redaktoru Şahin Hacıyev artıq Azərbaycana qayıdıb. Mətbuatda gedən yazılara görə, o, İrəvanda "erməni soyqırımı qurbanları"nın abidəsini ziyarət edib.**

Ş.Hacıyev dünən bu səfər, eləcə də abidəni ziyarətlə bağlı məqamları reportajının birinci hissəsində işıqlandırıb. "Yeni Müsavat" yaranmış sualları nəzərə alaraq, reportajın həmin hissəsini nəzərə çatdırır.

Ş.Hacıyev öncə yazıb ki, jurnalistlərin Ermənistana səfəri ideyası bir il öncə irəli sürülmüşdü. Onun qeydlərinə görə, bir neçə ay Azərbaycanın dövlət orqanları ilə iş aparılıb: "Ermənistan XİN-lə danışıqlara da o qədər vaxt getdi. Səfər ötən ilin noyabrında olmalıydı, ancaq ölkədə keçiriləcək parlament seçkiləri ilə əlaqədar təxirə salındı... "Bu, nəyə lazımdır?" sualının cavabı sadədir, eyni zamanda da mürəkkəb. Hərbi münaqişədə olduğumuz ölkə cəmiyyətindəki əhval-ruhiyyəni başa düşməyin nə qədər vacib olduğunu izah etmək lazım deyil. Bəlkə də əsas məqsəd bu idi. Bunu necə etməli? Ermənistan və ermənilər üçün müəyyən əhəmiyyət daşıyan bəzi məsələlər var: 1915-ci il hadisələri, erməni kilsəsinin siyasi rolu və Qarabağ. Diqqət mərkəzində olan üç məsələ budur. Ermənistanda KİV-də bu mövzuda yazıların dərcini və Bakıda bunlara ağrılı reaksiyanı nəzərə alaraq 1915-ci il mövzusundan başlayacam".



**Ş.Hacıyev sözügedən abidəni necə ziyarət etməsinin ardıcıllığından da bəhs edib:** "Ermənistan XİN-dən akkreditasiya alındıqdan sonra 1915-ci il hadisələri ilə bağlı müsahibə verməsi xahişi ilə memorialın direktoru Arutyun Marutyana müraciət göndərildi. A.Marutyan muzeyə dəvət etdi, ancaq müsahibədən imtina etdi, bildirdi ki, muzeyin əməkdaşı bütün suallara cavab verəcək. Muzeyə ziyarət baş tutanda isə muzey bələdçisi bildirdi ki, suallara cavab verməyə səlahiyyəti yoxdur, ancaq eksponatları təqdim edəcək. Bu və ya digər məsələlərlə bağlı dəqiqləşdirici suallara "bilmirəm", "deyə bilmərəm" cavabını verdi. Bundan əlavə, ekspozisiyanın bir hissəsini çəkmək qadağan olunmuşdu. "Bunlar şəxsi kolleksiyaların eksponatlarıdır və sahibləri onların fotosunu çəkməyin əleyhinədir", - bələdçi vaxtaşırı ona erməni dilində göstəriş verən təhlükəsizlik xidmətinin əməkdaşının iti baxışları altında dedi.

"Soyqırım muzeyinə başçəkmə" beləcə başa çatdı. 1915-ci il mövzusuna Ermənistanda bütün siyasətçilər və ictimai xadimlər arasında müsahibələrdə toxunuldu. Həmin söhbətlərdən gəlinən nəticə sadədir: həmin mövzu bu milləti bağlayan başlıca elementdir. Ermənilər sualların çoxuna məhz bu prizmadan baxırlar və çoxları öz hərəkətlərini həmin hadisələrin fəsadları və onların təkrarlana bilməsinin təhlükəsi ilə izah edirlər. Ancaq burada bir mühüm məqam var. Əlinə silah götürüb öz müstəqilliyi uğrunda döyüşən istənilən xalq axıdılan qan ilə fəxr edir və savaşaraq öz vətəndaşlarının həyatını qurban verdiyini gizlətmir. Ermənilərdə isə başqa cürdür: türklər bir milyon yarımdan çox günahsız qurbanı - qadınları və uşaqları qətlə yetirdilər. Sual: Ermənilər repressiya üçün hansısa səbəb vermişdimi, niyə erməni hərbçiləri öz hökumətinə qarşı silah qaldırdı və rusiyalı işğalçı qüvvələrə yardım etməyə başladı? Sual kəskin və mənfi reaksiya doğurur. Həmçinin erməniləri üsyana təhrik edən, qiyamçı dəstələri silah və pul ilə təchiz edən Qərb dövlətlərinin və Rusiyanın hər hansı rolu inkar edilir. Ancaq bütün bunların ermənilərdə bir cavabı var: türklər ermənilərin məhv edilməsini çoxdan planlaşdırmışdılar ki, Türkiyəni xristianlardan təmizləsinlər. Hətta ermənilər haradasa silah qaldırmış olsaydı belə, heç kimi öldürmək olmazdı. Bu fikirlərlə də 1915-ci il memorialını tərk etdik".

"Yeni Müsavat" xatırladır ki, Ş.Hacıyev soyqırım muzeyinə baş çəkməsinin səbəblərini və bu hekayənin detallarını yazısında belə yazıb.

**Qarabağ Azadlıq Təşkilatı (QAT) isə Ş.Hacıyevin Ermənistana səfər etməsini sərt qınayan bəyanat verib. Bəyanatda göstərilir:** ""Turan" agentliyini və onun əməkdaşı Şahin Hacıyevi bu hərəkətlərinə görə sərt ittiham edirik. Torpaqlarımız işğal altında qaldığı vaxtda Ermənistana bu cür səfərlər yalnız ermənilərin maraqlarına xidmət edir. Bəzi mərkəzlər torpaqlar işğalda qala-qala xalqları sülhə hazırlamaq tapşırığı verirlər. Bu da ancaq işğalçı Ermənistanın xeyrinədir. "Turan" agentliyi bunu başa düşür və bilərəkdən erməni maraqlarına xidmət edir. Biz hər kəsi bu xəyanət yolundan çəkilməyə çağırırıq. Biz bir daha bəyan edirik ki, bu cür xəyanətkar addımların qarşısını almaq üçün bütün imkanlardan istifadə edəcəyik. Ermənilərlə hər hansı təmaslar yalnız torpaqlarımız işğaldan azad olunandan sonra başlaya bilər. Bunu başa düşməyənlər ya sadəlövhdürlər, ya da bilərəkdən Azərbaycanın maraqlarına xəyanət edirlər".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019



# "Gürcüstandan Ermənistana dəhliz verilməsi çoxməqsədli geosiyasi plandır"

**Nəzakət Məmmədova:** "Tsxinvalidən nəqliyyat dəhlizinin açılması həm ABŞ-ın, həm də Türkiyənin Cənubi Qafqaz siyasətinə ziddir"

**Rusiya və Gürcüstan "Gömrük idarəetməsi və ticarətdə monitorinqin mexanizmləri haqda" 2011-ci ildə imzalanmış müqavilənin əsas prosedurlarını yekunlaşdırıb. Müqavilə Abxaziya və Cənubi Osetiya ərazisində yeni sərhəd-keçid məntəqələri yaratmağa imkan verir. Həmin məntəqələrdə gömrük nəzarətini İsveçrənin SGS şirkəti həyata keçirəcək.**

Layihənin icrası Ermənistana Gürcüstan ərazisindən Rusiyaya məhsul satışını artırmağa və faktiki olaraq onun nəqliyyat blokadasından çıxmasına yol açacaq.

Bundan əvvəl isə Axalkalakidə erməni cəlladına heykəl ucaldılıb.

Azərbaycanın Gürcüstana saysız-hesabsız yaxşılıqlarının, dəstəyinin olmasına baxmayaraq, işğalçı Ermənistana Tiflisin dəstək verməsi təəccüb doğurmaya bilmir. Burada mütləq bir kənar güc, amil də var. Bunun arxasında Rusiyadan təzyiq, Qərbin istəyi, yoxsa xristian amili dayanır?

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a bildirdi ki, bu, Rusiyanın layihəsidir və Rusiya hər zaman olduğu kimi beynəlxalq mexanizmləri öz maraqları üçün istifadə etməyə çalışır: "Tsxinvali vasitəsilə Ermənistanla Rusiyanın birləşdirilməsi də bu planın növbəti bir hissəsidir. Lavrovun müavini Karasinin Ermənistan səfərindən sonra bu məsələ gündəmə gətirildi. Bu da təsadüfi deyil. Çünki Rusiya 2012-ci ildən bəri fəaliyyət göstərən Karasin-Abaşidze formatı çərçivəsində məsələnin həllinə səy göstərir. Halbuki bu format əsasən Gürcüstan-Rusiya ticarət əlaqələrinin tənzimlənməsi funksiyası daşıyır və Ermənistanla bağlı məsələnin müzakirəsi bu formata uyğun deyil. Heç şübhəsiz ki, məqsəd Ermənistanın dəhliz vasitəsilə Rusiyaya birbaşa çıxışını təmin edib onun de-fakto Rusiyanın bir quberniyası olduğunu bir daha təsbit etməkdən ibarətdir. Burada böyük, çoxməqsədli geosiyasi plandan söhbət gedir.

İndi Ermənistanla dəhliz məsələsinin əsassız şəkildə daxil edildiyi Karasin-Abaşidze formatının özü də Rusiyanın 2012-ci ildə Saakaşvilinin partiyasının seçkilərdə məğlubiyyətindən sonra Rusiyanın yenidən Gürcüstanı nəzarətə almaq mexanizmlərindən biridir. Görünən odur ki, Karasin-Abaşidze formatı tək Gürcüstanı deyil, Ermənistanı da nəzarətdə saxlamaq mexanizmi kimi istifadə edilir".

**Politoloqun sözlərinə görə, Rusiya Qərbin, xüsusilə də ABŞ-ın Ermənistan-Gürcüstan, Gürcüstan-Ukraynanı nəzarətə almaq planlarına qarşı Ermənistan-Gürcüstan-Rusiya dəhlizi yaratmaqla cavab verir. Bu, şübhəsiz ki, iqtisadi-kommunikasiya yox, geostrateji hədəfli çoxşaxəli geosiyasi layihədir:** "Rusiya və Ermənistan eyni zamanda Abxaziya dəmir yolu məsələsini də mütəmadi gündəmə gətirməklə Bakı-Tiflis-Qars layihəsinə alternativ yaratmağa, Gürcüstanın tamamilə Qərbin nəzarətindən çıxarıb Rusiyaya keçməsinə səy göstərirlər. Xocalı canisinə abidə qoyulması da Azərbaycan-Gürcüstan münasibətlərinin pozulmasına hesablanmış təxribatçı addım idi. Baş verənlərdə xristian amili olsa da əsas amil deyil".

**N.Məmmədova vurğuladı ki, Rusiya Ermənistanın Qərbin, xüsusilə ABŞ-ın təsirində olan hakimiyyətinin onun regiondakı maraqlarına qarşı getdikcə artan siyasətini önləmək, onun qarşısını əlindəki bütün vasitələrlə almaq üçün bu addımı atır:** "Rusiya Ermənistana münasibətini ənənəvi "dəyənək və kökə" siyasətinə uyğun şəkildə davam etdirərək həm təbii qazın qiymətini artırmaqla, Paşinyanın cinayətdə ittiham etdiyi Köçəryanı, Xaçaturovu, Sərkisyanı dəstəkləməklə, Paşinyana münasibətdə KTMT-də protokola zidd nəzakətsiz şəkildə aşağılamaqla təzyiq göstərir. Həm də qırıcı təyyarələr vəd etməklə, Tsxinvalidən dəhliz açmaqla onun Azərbaycan və Türkiyə tərəfindən illərlə işğalçı kimi məruz qaldığı təcridini aradan qaldırmaqla öz nəzarətindən buraxmaq istəmir. Bu ay Cenevrədə üçtərəfli formatda Rusiyanın təşəbbüsü ilə Tsxinvalidən nəqliyyat dəhlizinin açılması həm ABŞ, həm də Türkiyənin Cənubi Qafqaz siyasətinə ziddir. Görünür, Amerikanın regionda fəal sülh səyləri, Boltonun Əliyevə və Paşinyana zəngləri, Qarabağ məsələsinin Azərbaycanın Ermənistanla onun təcridini aradan qaldırmaqla, kommunikasiyaları bərpa təklifinin Ermənistanın yeni rəhbərliyini qane etməsi, Türkiyənin buna razılığı və Ermənistanla əməkdaşlığa hazır olması Rusiyanı narahat edir. Və o, bu addımı atmaqla ABŞ-ın Qarabağ planının qarşısını almağa çalışır. Paşinyanın fevralın 28-də İrana səfəri də Ermənistanın ABŞ-Azərbaycan-Ermənistan planına qarşı Rusiya-Ermənistan-İran formatını gözdən keçirdiyini sübut edir".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

---

**Fransa dövləti növbəti dəfə Türkiyə əleyhinə addım atmaq niyyətindədir. Belə ki, Fransa prezidenti Emmanuel Makron aprelin 24-nü erməni soyqırımını anma günü kimi rəsmiləşdirmək niyyətindədir.**

# Fransa prezidentinin ermənipərəst mövqeyi sərt etirazlar doğurdu

## Makronun 24 apreli "erməni soyqırımı"nı anma günü kimi rəsmiləşdirmək niyyəti Paris-Ankara münasibətlərini gərginləşdirə bilər



Musavat.com erməni mətbuatına istinadən xəbər verir ki, Makron bununla bağlı qərarını 5 fevralda, qatıldığı erməni təşkilatlarının koordinasiya şurasının iclasında açıqlayıb. O, Fransanın Osmanlı imperiyasında ermənilərin guya kütləvi surətdə qətlə yetirildiyini tanıyan ilk ölkələrdən biri olduğunu vurğulayıb. Makron, üstəlik, qondarma soyqırım haqqında qanunun 2001-ci ildə "uzun mübarizə və döyüşlərdən" sonra qəbul edildiyini söyləyib.

24 apreli qondarma "erməni soyqırımı" günü elan etmək barədə vədini Fransanın hazırkı dövlət başçısı hələ seçkiqabağı kampaniya dövründə verməyib. Əslində bu, gözlənilməz addım sayıla bilməz. Çünki hələ seçkiqabağı kampaniyası zamanı Makron ermənilərə sevgisini açıq mətnlə bürüzə verirdi. Ötən ilin oktyabrında İrəvanda keçirilən Beynəlxalq Frankofoniya həftəsində iştirak edən Makron işğalçı ölkə və onun xalq barədə gəlişigözəl sözlər söyləyərək faktiki olaraq həmsədr ölkənin rəhbəri olduğunu "unutmuşdu". "Ermənilər Fransa tarixinin bir hissəsidir və onun fəxridir. Mən Frankofoniyanın 17-ci sammitində iştirak etmək üçün Ermənistanda olmağıma görə şadam. Ermənistan bizim üçün çox əzizdir. Ermənilər Fransa tarixini yaradıblar, biz, demək olar ki, yarım həmyerlilərimizdir. Ermənilər bizim tariximizin bir hissəsi və fəxr predmetidir", - deyən Makronun Bakıya səfəri gözlənilsə də, sonradan qeyri-müəyyən səbəblərdən səfər reallaşmadı. İndi Makronun tarixdə olmayan hadisəyə görə ermənilərə yas saxlaması təkcə qardaş Türkiyəyə qarşı yox, elə Azərbaycana qarşı da xəyanətkar addım sayılır. Çünki Türkiyəyə qarşı qəbul edilən qərar həm də Azərbaycan əleyhinə yönəlmiş sayılmalıdır, yaxud əksinə. Bunu hər iki qardaş ölkənin liderləri dəfələrlə bəyan ediblər.

Xatırlatmaq yerinə düşər ki, Fransanın eks-prezidenti Fransua Olland da vaxtilə Ermənistanı Fransanın "kiçik bacısı" adlandırmışdı. Lakin görünür, ermənipərəstliyinə görə Makron bütün sələflərini ötüb keçməyə çalışır.

Düzdür, Fransa Avropada ermənilərin ən çox yaşadığı (beş yüz min vətəndaş-red.) ölkə sayılır. Sözsüz ki, bu qərarın qəbul olunmasında erməni amili mühüm rol oynayıb. Xüsusilə də "sarı jiletlilər"in Makronun "gününü qara" etdiyi bir zamanda Fransa prezidentinin ermənilərə jest etməsi, heç şübhəsiz, erməni elektoratın ələ alınmasına hesablanıb. Amma əvəzində Makron Türkiyə kimi nəhəngi özündən narazı salır, eyni zamanda Azərbaycanı.

Vaxtilə Fransada "erməni soyqırımı"nı inkara görə cəza qərarı veriləndə də Türkiyə Fransa mallarına qarşı sanksiya tətbiq etmiş, eyni zamanda bir sıra digər addımlar atmışdı.

Rəsmi Ankaranın bu qərara cavabı, gözlənildiyi kimi, kifayət qədər sərt olub. Türkiyə hökuməti Fransa prezidenti Emmanuel Makronun 24 aprel tarixini qondarma erməni soyqırımının anım günü kimi qeyd etmək qərarını kəskin şəkildə tənqid edib. Axar.az xəbər verir ki, bu barədə Türkiyə prezidentinin sözçüsü İbrahim Qalın danışıb.

"Makronun "erməni soyqırımı"nın anım günü ilə bağlı elan xarakterli açıqlamasını şiddətli qınayırıq. Qondarma erməni soyqırımı iddiaları heç bir hüquqi təməli olmayan, tarixi həqiqətlərə zidd, siyasi bir yalandır. Türkiyə üçün heç bir hökmü yoxdur. Prezident Rəcəb Tayyib Ərdoğanın 2005-ci ildə həqiqətlərin işıqlandırılması üçün Ortaq Tarix Komissiyası yaradılması çağırışından qaçanlar tarixi hadisələri manipulyasiya etməyə çalışırlar"- deyə, Qalın bildirib.

**Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hamit Karadeniz isə "Yeni Müsavat"ın sorğusuna cavabında dedi ki, Türkiyənin münasibəti və mövqeyi çox açıq və qətidir:** "Bu məsələyə Türkiyənin münasibəti və mövqeyi çox açıq və qətidir. Hörmətli cümhurbaşqanımız Rəcəb Tayyib Ərdoğan hər zaman bu məsələnin siyasi məqsədlərə xidmət etdiyini bildirib. Prezidentimiz arxivlərin açılmasını və bu məsələnin tarixçilərin ixtiyarına buraxılmasını zəruri sayıb, dünya ictimaiyyəti buna şahiddir. Fransa prezidentinin bu şəkildə açıqlaması həqiqəti dəyişdirməz, yalan və iftiralarla nəticə əldə edə bilməzlər. Güneş palçıqla suvanmaz. Yeri və zamanı gələndə yetkililərimiz gərəkli cavabı verirlər. Bu kimi xəbərlər artıq ciddiyyətini və özəlliyini itirib".

Saxta soyqırımı iddialarına görə, guya 1915-ci il aprelin 24-dən başlayaraq 1923-cü ilə kimi Türkiyədə 1 milyon 500 min nəfər erməni öldürülüb. Bu iddiaları indiyədək onlarla ölkə (Fransa, İtaliya, İsveç, İsveçrə, Avstriya, Niderland, Belçika, Yunanıstan, Kipr, Danimarka, Polşa, Çexiya, Slovakiya, Vatikan, Litva, Rusiya, Kanada, Uruqvay, Braziliya, Argentina, Çili, Venesuela, və s.), ABŞ-ın 42 ştatı, Avropa Parlamenti rəsmən tanıyıb.

**Türkiyədə çalışan ermənişünas alim Qafar Çaxmaqlı "Yeni Müsavat"a açıqlamasında Fransanın ermənipərəst mövqeyindən təəccüblənmədiyini vurğuladı:** "Tarixə nəzər salsaq, Osmanlı imperiyası zamanında da bu ölkədə yaşayan ermənilərin ən böyük himayəçisi Fransa olub. Fransa Birinci Dünya müharibəsində erməni könüllülərdən ibarət legion da qurub və onlara Kilikiya (indiki Çuxurova) bölgəsində bir dövlət qurma vədi verib. Amma böyük öndər Atatürkün başlatdığı Milli Mücadilə sayəsində bu plan baş tutmayıb. İndinin özündə də ermənilər Fransanın onların araxasından qaçdığını, vədinə xilaf çıxdığını iddia etməkdədir. 1915-ci il təhcir (Osmanlı imperiyasında baş vermiş təhcir olayında erməni təbəələrinin dövlətə qarşı xəyanətkar siyasəti gizlənirdi-red.) olayından sonra əsasən indiki Suriya ərazisində yerləşdirilən ermənilərin çoxu fransızlarla birlikdə Fransaya köçüblər və dünyada indi ən güclü erməni diaspor təşkilatları da bu ölkədədir".

**Q.Çaxmaqlı dedi ki, Fransanı idarə etməyə iddialı olan hər bir siyasətçi ermənilərin bu gücü ilə hesablaşmaq məcburiyyətindədir:** "Makron da seçkiqabağı platformalarını elan edərkən saxta "erməni soyqırımı" ilə bağlı əməli işlər görəcəyini vəd etmişdi. İndi həmin vədinə əməl edir. Ermənilər bu fürsəti əldən qaçırmırlar, məsələnin mahiyyəti budur". **Politoloq qeyd etdi ki, Fransanın ATƏT-in Minsk Qrupunda həmsədr ölkə olaraq açıq şəkildə ermənilərə dəstək verməsi də yeni deyil:** "Dağlıq Qarabağ münaqişəsində Fransa tərəf olduğunu, özü də Ermənistanın tərəfində çıxış etdiyini növbəti dəfəm sübuta yetirdi. Bunu biz çoxdan bilirik. Amma onun həmsədrliyindən imtina edə bilmirik. Belə bir ölkənin həmsədr, arbitrliyi bizə yaxşı heç nə vəd etmir. Bunu yaxşı bilirik. Bu xəbər yayılanda erməni mətbuatına baxdım. Yazırlar ki, "Fransa, nəhayət, keçən əsrin əvvəllərində ermənilərlə bağlı etdiyi "xəyanəti" başa düşüb və indi onu düzəldir. Ermənilər hədəfləməkdədirlər ki, başqa Avropa ölkələrində də fransızların gedişini təkrarlasınlar. 20 ölkə və daha artığında qondarma "soyqırım"ın tanıdılması taktikası sanki dəyişməkdədir. İndi ayrı- ayrı ölkələr rəsmən bu günü, yəni 24 apreli anım günü keçirsə, daha effektli sanırlar".

**Q.Çaxmaqlı hesab edir ki, Azərbaycan və Türkiyə bu məsələdə birgə addımlar atmalıdır:** "İndi Türkiyə Fransanın Minsk Qrupundakı həmsədrliyinin ləğv edilməsinə çalışmalıdır. Əsas da bu ola bilər ki, Fransa artıq tərəf olduğunu isbatlayıb. Xatırlayırsınızsa, rəhmətlik Heydər Əliyevin vaxtında bu məsələ bir dəfə gündəmə gəlmişdi. Səhv etmirəmsə, 2001-ci ildə. Onda Fransa qondarma "erməni soyqırımı"nı qəbul etmişdi. Fransanın yerinə Almaniyanın həmsədr olması məsələsi gündəmə gəlmişdi. O vaxt Almaniya da buna can atmaqda idi. İndi xarici siyasətlə rəsmən məşğul olanlarımız bu cəhətlərə diqqət etməli, Türkiyə ilə birgə addımları daha sərt şəkildə atmalıdırlar".

**Məsələ ilə bağlı Xarici İşlər Nazirliyinin mövqeyini öyrənə bilmədik. Amma yəqin ki, məsələ araşdırılandan sonra adekvat münasibət bildiriləcək. Çünki söhbət "Bir millət, iki dövlət"in maraqlarından gedir.**

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019

# Yeni yaradılan Xalq Hərəkatı necə uğur qazanacaq?

**Yeni yaradılan Azərbaycan Xalq Hərəkatı (AXH) ətrafında gedən müzakirələr səngimək bilmir. Belə bir hərəkatın indiki şəraitdə meydana çıxmasını vacib sayanlar da var, bunun əksini düşünənlər də...**



## Qabil Hüseynli: "Cəmiyyətin etimadını qazanmış olsalar..."

AXH daha çox 1988-ci ildən etibarən meydana çıxan o zamankı xalq hərəkatı ilə daha çox müqayisə edilir. Belə fikirlər var ki, 30 il öncə müstəqillik uğrunda, eləcə də Qarabağ ətrafında cərəyan edən hadisələrlə əlaqədar o zaman xalq hərəkatına böyük ehtiyac var. İndi isə belə bir hərəkatın yaranmasına ehtiyacın olub-olmadığı yönündə çoxsaylı suallar yaranıb. Eyni zamanda 20 il öncəki hərəkat kimi AXH-nin qarşısına qoyduğu məqsədlərə çatıb-çatmayacağı da müzakirələr sırasındadır.

**Politoloq Qabil Hüseynli gedən müzakirələrlə bağlı "Yeni Müsavat"a bunları dedi:** "Azərbaycan Xalq Hərəkatı kifayət qədər yetkin siyasətçilərdən və siyasi partiyalardan təşkil olunub. Doğrudur, hərəkatın yaranması üçün ilk başlanğıcda ADP, Ümid kimi partiyalar fəal iştirak etsələr də, sonradan hərəkatda sıravi üzv kimi fəaliyyət göstərmək qərarı verdilər. Amma kənardan tam şəkildə dəstək verəcəklərini bildirdilər. Düşünürəm ki, bu hərəkat daha çox müxalifətin siyasi inteqrasiyaya getmək məsələsidir. Bunun hər hansı bir mənfi nəticələrə gətirib çıxaracağını gözləmirəm. Çünki zaman-zaman siyasi müxalifətin inteqrasiyaya getməsi, bloklaşması təbii bir prosesdir. Xüsusilə seçkilər ərəfəsində bu daha çox aktual olur. Bu xalq hərəkatını yaradanlar tam hədəflərini müəyyən etməsələr də, bu barədə mətbuata məlumat verməsələr də, görünən odur ki, seçkilər ərəfəsində gedən proseslərin nəticəsidir. Güc mərkəzi olmaq üçün siyasi partiyaların yaxınlaşmasından doğan bir xalq hərəkatının meydana çıxdığını da düşünmək olar. ADP və Ümid partiyalarının ən azından bu proseslərə mənfi münasibət bəsləməmələri, proseslərə dəstək vermələri bu hərəkat haqqında nəyisə düşünməyə əsas verir. Digər tərəfdən, AĞ Partiyanın və onun rəhbəri Tural Abbaslının timsalında hərəkatda yeni bir siyasi qüvvə də var. Bu qüvvə günü-gündən fəallığını artırır, nüfuz qazanır. Belə qüvvələrin hərəkatda olması onun üçün müsbətdir".

**Politoloq müxalifətin bugünkü durumunun ürəkaçan olmadığını da söylədi:** "Bu bir faktdır. Ciddi parçalanma və pərakəndəlik göz önündədir. Sosial elektoratla təmaslar olduqca zəifləyib. Zənnimcə, siyasi partiyalar bu məsələləri ciddi dərk edir. Ona görə də siyasi inteqrasiya yolunu tutmaqla yeni güc mərkəzi formalaşdırmağa çalışırlar. Bu güc mərkəzi əvvəlki illərin güc mərkəzlərinin təcrübəsini təkrarlasa da, burada qeyri-adi heç nə yoxdur. Onu da qeyd edim ki, hərəkatda təmsil olunan partiyaların əksəriyyəti əvvəlki illərdə gedən proseslərdə hər zaman aktiv iştirak ediblər. Bu partiyalar hədəflərini reallaşdırmaq üçün gördükləri işlərdə cəmiyyətin tələblərini də nəzərə alırlar. Xalq hərəkatının siyasi proseslərə təkan verəcəyi, aktivliyi artıracağı qənaətindəyəm. Bu proseslərdə konstruktiv mövqe tutan, Dağlıq Qarabağ məsələsinə həssaslıqla yanaşan siyasi qüvvələrin olmasının əhəmiyyətli olduğu qənaətindəyəm. Zənnimcə, bu hərəkatın formalaşması, idarəetmə orqanlarının yaradılması prosesləri başa çatarsa, cəmiyyət bundan uduş əldə edə bilər. Ən azından siyasi qüvvələrin pərakəndə şəkildə bir-birinə qarşı mənasız ittihamlarındansa, siyasi inteqrasiya prosesinin getməsi və yeni güc mərkəzinin yaranması daha əhəmiyyətli ola bilər".

**Q.Hüseynli hərəkatın hədəfinə çatıb-çatmayacağını gələcəyin göstərəcəyini bildirdi:** "30 il öncə müstəqillik qazanmağımız və SSRİ-nin dağılması ərəfəsində formalaşan xalq hərəkatı mütəşəkkil bir qüvvə idi və geniş xalq kütlələrinin əzminə, iradəsinə söykənirdi. Ona görə güclü elektoral bazaya malik idi. İndi vəziyyət dəyişib, Azərbaycan suveren dövlətə çevrilib, iqtidar kifayət qədər uğurlu siyasət aparır, ölkə iqtisadiyyatı möhkəmlənib. Bütün proseslər siyasi müxalifətin rəqabət meydançasını çox daraldıb. Əvvəllər qarşıya qoyulan hədəflərə çatmaq üçün xalq hərəkatına söykənmək lazım gəlirdisə, indi belə deyil. İqtidarın xalq arasında ciddi sosial bazası var. Yeni hərəkat bu bazaya çətin ki, iddia etsin. Bu onların necə formalaşacağından və cəmiyyətə hansı şüarları təqdim edəcəklərindən asılıdır. Güclü alternativ planlar hazırlamaq xalq hərəkatının qarşısında duran əsas vəzifələrdən biridir. Bu hərəkatın formalaşmasından çox şey asılıdır. Bu elə edilməlidir ki, cəmiyyətdə etimad doğura bilsin. Əgər bu mərhələni uğurla həyata keçirə bilsələr, onlar ciddi yarışa hazır ola bilərlər. Bu intellektual yarışda isə cəmiyyətin etimadını qazanmış olsalar, uğur əldə edə bilərlər".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

# Seçki hazırlıqlarına başlanıb

## MSK seçici siyahılarını dəqiqləşdirir

**Seçki Məcəlləsinin tələbinə əsasən 2019-cu il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə seçicilər siyahısının dəqiqləşdirilməsinə start verilib. Bu barədə "Yeni Müsavat"a Mərkəzi Seçki Komissiyası (MSK) Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən məlumat verilib. Məlumatda deyilir ki, siyahıların yüksək səviyyədə dəqiqləşdirilməsi üçün bu geniş miqyaslı işə respublikadakı bütün aşağı seçki komissiyalarının otuz mindən artıq üzvü cəlb olunub və dəqiqləşdirmə prosesində həm DİN və Ədliyyə Nazirliyinin müvafiq orqanları, həm də yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq edilir. Qanunvericiliyə uyğun olaraq, vahid seçicilər siyahısının tərtib edilməsi ilkin olaraq məntəqə seçki komissiyaları tərəfindən aparılıb. Məntəqə seçki komissiyalarının üzvləri yerli icra orqanları və bələdiyyə qurumları tərəfindən təqdim edilən məlumatlar əsasında öz məntəqələrinin seçicilər siyahısını dəqiqləşdirərək, məntəqələr üzrə tərtib olunan seçici siyahılarını fevralın 5-dək müvafiq dairə seçki komissiyalarına təqdim ediblər.**



Bundan sonra dairə seçki komissiyaları seçici siyahılarını yoxlayaraq əlaqədar qurumlardan daxil olan məlumat və statistik göstəricilərlə bir daha təhlil etməli və öz hüdudları daxilində müvafiq seçki dairələri üzrə ilkin seçici siyahılarını dəqiqləşdirərək aprelin 5-dək MSK-ya təqdim etməlidirlər.

MSK da öz növbəsində vahid seçicilər siyahısının ölkə üzrə tərtib edilməsini həyata keçirəcək. Xəbərdə bildirilir ki, bu prosesə ən geci may ayının sonuna qədər yekun vurulması və ölkə üzrə yenidən tərtib olunan vahid seçicilər siyahısının MSK-nın rəsmi internet səhifəsində yerləşdirilərək ictimailəşdirilməsi nəzərdə tutulur.

MSK-dan onu da bildiriblər ki, hər hansı bir səbəbdən adlarını seçici siyahılarında tapmayan vətəndaşlar qurumun 115 nömrəli qaynar xəttinə zəng vura və ya komissiyanın internet səhifəsində olan onlayn ərizə formasını doldurmaqla müraciət edə bilərlər.

Qeyd edək ki, 2019-cu il dekabrın 27-də Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Seçici siyahılarının bələdiyyə seçkilərinə hazırlıq üçün aparıldığı məlumdur.

Eyni zamanda son zamanlar yayılan və hələlik rəsmi təsdiqlənməyən məlumatlarda bu il növbədənkənar parlament seçkilərinin də keçiriləcəyi bildirilir.

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# İfrata varmış zəlzələ xofu



**Xalid KAZIMLI**

**Son 20 ildə dünyanın, demək olar ki, bütün ölkələrində və arxipelaqlarında yüz minlərlə zəlzələ və ondan törənən təbii fəlakətlər (sunami, torpaq sürüşməsi) baş verib.**

Bu təbii fəlakətlərin içində dağıdıcılıq gücü çox olan, on minlərlə adamın ölümünə, yüz minlərlə tikilinin dağılmasına səbəb olanları da olub.

Məsələn, İranda, Türkiyədə, Nepalda elə zəlzələlər olub ki, müəyyən bir bölgədə daş daşın üstündə qalmayıb, maksimin sayda insan tələfatı qeydə alınıb.

Son 20 ildə hiss edilən, ajiotaj doğuran zəlzələlərdən biri də bizim ölkəmizdə baş verib. Bu hadisə 19 il öncə noyabr ayında baş verib.

Budur, 19 ildir Bakı sakinləri həmin hadisədən danışırlar. Hiss olunur ki, biz hələ də onun şokundan çıxmamışıq.

Söhbət açılan kimi hər kəs ballandıra-ballandıra 19 il öncə, noyabr axşamı baş verən "dəhşətli zəlzələ"yə dair öz xatirəsini danışır: "O vaxt mən filan yerdəydim..."; "Televizora baxırdıq, birdən..."; "Oturmuşduq, bir də gördüm..."; "Toydaydıq, bəy gəlini qoyub qaçdı..."; "Redaksiyadaydıq, qəzeti yarımçıq qoyduq..."; "Bizim qonşu həyətə pijamada düşmüşdü..."; "Oğlum öz oğlunu götürüb bayıra qaçdı..."; "Hamamdan çıxıb birbaşa həyətə enənlər vardı" və sair və ilaxır.

Bütün bunların hamısı real söhbətlərdir, heç kəs şişirdib-eləmir. Bəs o "dəhşətli zəlzələ"də neçə min ev dağılmışdı, neçə min adam ölmüşdü?

O "dəhşətli zəlzələ"də isə nə bir ev dağılmışdı, nə də ölən olmuşdu. Eləcə, bəzi köhnə tikililər çatlamışdı, bir də qorxusundan təlaşa qapılıb, özünü 2-ci, 3-cü mərtəbədən atıb qol-qıçını sındıranlar olmuşdu.

Əvəzində gecə səhərə qədər həyətdə gözləyib, maşında yatıb, qohum-qardaşıgilə yollanıb, öz evinə girməyən on minlərlə adam vardı.

O zəlzələnin əsl adı beləydi - təlaş, təşviş, panika, vahimə və s.

Bəlkə də bu bütün həddini aşmış, ifrata varmış ümumimili xofun əsl səbəbi o idi ki, biz dəhşətli zəlzələlər haqqında görüntülü informasiyalara çox baxmışdıq, cəmi bir il əvvəl Türkiyənin Mərmərə bölgəsində minlərlə adamın öldüyünü, on minlərlə adamın çökmüş panellərin, daş qalağının altında qaldığını, xilasedicilərin xüsusi təlim görmüş itlərlə onları axtardığını görmüşdük, ona görə bu qədər həyəcanlanmışdıq...

Hər nə olursa-olsun, baş vermiş, ötüb-keçmiş, arxada qalmış bir yüngül zəlzələyə görə bu qədər ağır şəkildə vahiməyə qapılmaq, onu təfərrüatıyla danışıb başqalarını da təlaşlandırmağa ehtiyac yox idi.

Srağagün axşam İsmayıllıda baş verən, Şamaxıda güclü, Bakıda isə az hiss edilən zəlzələ hadisəsi göstərdi ki, bizim hələ də asanlıqla vahiməyə qapılmaq mərəzimiz sağalmayıb.

Bir andaca sosial şəbəkələrdə minlərlə "zəlzələ statusu", şərhi peyda oldu, insanlar əvvəlcə ciddi-ciddi təlaşlı xəbərləşmə proseduru apardılar.

Ən azı paytaxtda ciddi bir yeraltı təkan olmamışdı, çox adam heç nə hiss etməmişdi, ancaq adamlar özlərini elə aparırdılar ki, sanki zəlzələnin episentri Bakıya düşüb.

Birdəfəlik bilmək lazımdır ki, hər gün dünyada minlərlə yeraltı təkan olur. Yer üzü daima titrəməkdədir, 1-2 ballıq təkanlar az qala hər dəqiqə baş verir və biz bunları hiss etmirik. Hiss etdiklərimiz isə 4 baldan yuxarı olanlardır.

Müasir insan zəlzələnin nə vaxt baş verəcəyini öncədən bilə bilməsə də, onun qarşısını almağı bacarmasa da, zəlzələ ilə yanaşı yaşamağı artıq öyrənib. Dünyanın ən çox və ən şiddətli zəlzələləri baş verən Yaponiyada artıq yeraltı təkanlara adi, həyat hadisəsi kimi baxırlar, nə təlaşa-təşvişə düşürlər, nə də əllərini göyə qaldırıb ilahi qüvvələrdən rəhm diləyirlər.

Bu, çoxdan sübut olunub ki, zəlzələ ilahi qüvvələr tərəfindən yerə, müəyyən bölgəyə göndərilən cəza deyil, Yerin alt qatlarında gedən tektonik proseslər nəticəsində yaranan yeraltı təkanlar və yer səthinin titrəyişləridir. Vəssalam.

Zəlzələ baş verən bölgənin kütləvi şəkildə günah işlədib-işlətməməsinin, qadınların açıq-saçıq geyinməsinin, həmin yerdə spirtli içkilərin daha çox istehlak edilməsinin zəlzələnin maqnitudasına, intensivlik şkalasına dəxli yoxdur.

Bunlara inanmaq mövhumatdır, xurafatdır. Kimsə bundan sonra bu məsələyə inanacaqsa və üstəlik, özünü inanclı sayacaqsa, yenə özü bilər. Zəlzələ göydən gələn fəlakət deyil, yerdən gələn təbiət hadisəsidir.



# Zəlzələnin səbəbləri

Zamin HACI
zaminhaci@gmail.com

"Deyil bihudə gər yağsa fələkdən başimə daşlar,
Binasın tişeyi-ahimlə viran etdiyimdəndir"
*(Füzuli)*

**İlk növbədə biz diqqət etməliyik Şamaxıda zəlzələnin törətdiyi ziyanın xarakterinə. Bunu qanmaq üçün elə iti ağıla, fəhmə-zada ehtiyac yoxdur: bütün dükanlarda araq butulkaları düşüb yerə sınıq-sınıq olmuşdu. Bəli. Böyük hikmətdir. Şübhəsiz, sən haqqın yolundan dönüb spirtli içkiyə qurşansan ayağının altından yer qaçmalıdır. Odur, İranda niyə zəlzələ olmur? Bütpərəst Yaponiyada isə zəlzələ olmayan gün camaat Kioto pirinə gedib nəzir verir. Ki, bu gün nəsə qeyri-adi gündür, imperator Akihitonun başına bir bəla gəlməsin, ilahi, amin.**

İkincisi, Bakı ətrafında kanalda balıqlar üzə çıxmışdılar, telekanalizasiya yerli baytar alimdən (bizdə balıqlar danakimilər fəsiləsinə aid edildiyi üçün bunun da işinə baytar baxır - axırıncı ixtioloqumuzu 1993-cü ildə Şıx çimərliyində cəbhəçi Balıq Hafiz batırıb) müsahibə almışdı, qardaşımız açıq-aydın dedi ki, zəlzələ gözlənilirsə balıqlar suyun üzünə çıxırlar. Hərçənd orada kanalın suyu qurumuşdu, bunu kor da görürdü. Suyun səviyyəsi nəlbəki dərinlikdə olandan sonra balıq yazıq hansı dibə getməliydi, məlum deyildi. Hətta su bir az da kəsilsə bizim balıqlar uçan balıqlara çevrilərlər. Sonra suda-quruda yaşayanlara, daha sonra quşlara, məməlilərə və sairə. Yəni dövlətçilik elə səviyyədədir istəsən təkamül nəzəriyyəsinin neçə milyon illik tarixini beş-on ilin içində şəxsən, praktik formada müşahidə edə bilərsən. Neçə adam tanıyırdım, qısa vaxt ərzində meymuna çevrildi. Bəzi meymunlar adam olub vəzifələrə keçdilər.

Nə başınızı ağrıdım, üçüncü səbəb Azərbaycan Xalq Hərəkatının elan edilməsi ilə bağlı ola bilər. Ya da Milli Şuranın mitinqləri, xalqın fısqırıq aktivləşməsi ilə. Yəqin iqtidar tektonik silahı (bunu görkəmli ekoloq alimimiz, donuz qripinə durna qatarının təsiri üzrə elmi araşdırmalar müəllifi Telman müəllimdən prokata götürüblər; milli istehsaldır, hər adama verilmir) işə salaraq torpağın altındakı öküzü qıdıqlayıbdır, öküz soncuqlayıb üstündə dayandığı tısbağaya buynuz soxubdur, nəticədə Şamaxıda zəlzələ olubdur. İstəyirlər camaatın gözü qorxsun, daha mitinqə çıxmasınlar. Biz bunu 2000-ci ildə, deputatxana seçkilərindən sonra da görmüşük. O vaxt Şəkidə-zadda camaat narazılıq eləmişdi, hətta bir-iki maşın yandırmışdılar. Sonra zəlzələ oldu, millət şükür elədi, sakitləşib xarabasına dağılışdı. İqlim silahı ciddi silahdır. Keçən ay küləyi necə əsdirmişdilər, unutmamışıq. Onu da Mehmanı unutdurmaq üçün püləyirdilər.

O cümlədən hadisənin episentrinin Şamaxı tərəflərdə olması gərək bizim diqqətimizdən yayınmasın. Şamaxı kimin vətənidir? Yox, Rüstəm İbrahimbəyovu, Ayaz Mütəllibovu, Qənimət Zahidi nəzərdə tutmuram. Biz oranı Nəsimi yurdu kimi tanıyırıq. 2019-cu il Nəsimi ili elan olunubdur, kim bilir, bəlkə xarici düşmənlərimiz zəlzələ törədib dövlət tədbirlərini pozmaq istəyirlər. Yeri gəlmişkən, Nəsimi haqda sovet vaxtı poema yazıb medal alan şair Qabilin adına gəmi varmış (Bəzi mənbələr həmin poemada Nəsimin dərisinin ikinci dəfə, qiyabi soyulduğunu iddia edirlər, ancaq bizə nə? Qoy bunun elmi izahatını AYB üzvü Cəmil Həsənli müəllim versin). Bunu Türkiyədəki biznesmenimiz Mübariz müəllim qayırıbmış. İndi isə SOCAR tutub gəmini Mübariz müəllimdən mübarizəsiz formada alıb, adını dəyişib "Göy göl" qoyub. Bizə bunun da dəxli yoxdur. Sadəcə, mənə maraqlı gəldi gəminin qabaqkı adı niyə "Poet Qabil" olubdur? Poet, yəni rusca şair. Bəyəm Qabil rus dilində şeir yazırdı? Qəribə işdir. Elə bil Puşkindir.

Üstəlik, məntiqlə şairin adını parovoza qoymaq lazım idi, ancaq bu, tamam başqa temadır, inşallah, zəlzələ olub redaksiya dağılmasa haçansa yazarıq.

---

**İsrailin "Aeronautics Defense Systems" LTD şirkətinin Azərbaycana təzədən pilotsuz uçan aparatlar (PUA) - kamikadzelər tədarük edəcəyi barədə ötən sayımızda məlumat vermişdik. Belə ki, "The Times og İsrael" nəşri yazıb ki, İsrailin Müdafiə Nazirliyi şirkət tərəfindən "Orbiter 1K" PUA-ların Azərbaycana satışına qadağanı götürüb.**

Bir daha xatırladaq ki, adıçəkilən kampaniya ilə bağlı qalmaqal 2017-ci ilin yayında yaranmışdı. O zaman yeni PUA-lar almağa hazırlaşan Azərbaycan nümayəndələri guya şirkətin ölkəmizə gələn əməkdaşlarından xahiş ediblər




# Bakının "Dəmir günbəzi", "Orbiter"ləri, "Polonez"ləri və ... Ermənistandakı müharibə xofu

## İsrailin Azərbaycana kamikadze-dronların satışına yasağı götürməsi İrəvanı niyə təlaşlandırıb? Rusiya isə Minskin Bakıya müasir raket kompleksləri satmasından narahat deyil, çünki...

ki, bu dronların imkanlarını əyani nümayiş etdirsinlər və bundan ötrü də operatorlara Qarabağdakı erməni mövqelərinə zərbə endirməyi təklif ediblər.

O vaxt bu haqda erməni tərəfi süni hay-küy qaldırmışdı. Ondan qabaq isə Bakının İsraildən "Dəmir günbəz" raketdən müdafiə sistemləri almağa hazırlaşması düşmən ölkədə təlaş doğurmuşdu...

*****

Gözlənildiyi kimi, PUA-larla bağlı qadağanın aradan götürülməsi Ermənistanda narahatlıq yaradıb. "Yeni Müsavat"ın erməni KİV-nə istinadən verdiyi məlumata görə, Ermənistanın Xarici İşlər Nazirliyi (XİN) bu məsələni "iki və çoxtərəfli diplomatik meydançalarda qaldırmaq" niyyətindədir.

"Ermənistan XİN İsrailin pilotsuz uçan aparat-kamikadzeləri Azərbaycana satmaq məsələsini iki və çoxtərəfli diplomatik meydançalarda qaldırmaq" niyyətindədir". Bunu XİN-in mətbuat katibi **Anna Naqdalyan** xəbərə münasibət bildirərkən deyib.

**Onun sözlərinə görə, regionda sürətlə silahlanma İrəvanın gündəmindədir.** "Və biz bu məsələni həm ikitərəfli, həm də çoxtərəfli platformalarda qaldıracaq və müzakirə edəcəyik. Görünür ki, bizim beynəlxalq tərəfdaşlarımıza dəfələrlə xatırlatmaq lazımdır ki, bizim regionda silahlanma yarışı çox təhlükəlidir", - deyə o əlavə edib.

*****

Ancaq erməni tərəfinin bu hay-küyü də yersizdir və işğalçı ölkəyə heç bir pozitiv divident gətirə bilməz. Çünki əvvəla, ərazisinin 20%-i on illərdir erməni işğalı altında olan Azərbaycanın ən müasir silahlar alıb öz ordusunu gücləndirməyə və torpaqlarını istənilən yolla azad eləməyə haqqı var. Bu haqqı isə Azərbaycana ilk növbədə Ermənistanın da üzvü olub altından imza atdığı BMT Nizamnaməsi və BMT TŞ-nin Dağlıq Qarabağa dair 4 məlum qətnaməsi verir. Hələ ki bu sənədləri heç kim ləğv eləməyib. Eləcə də Qarabağla bağlı Avropa Birliyinin (Avroparlament), AŞ PA-nın, NATO-nun, Qoşulmamaq Hərəkatının və 54 müsəlman dövlətini birləşdirən İslam Əməkdaşlıq Təşkilatının analoji sənədləri var. Bunlar hamısı bütövlükdə Azərbaycanın xeyrinə beynəlxalq ictimai rəy deməkdir.

İkincisi, Azərbaycan Ermənistandan fərqli olaraq, hansısa ölkədən asılı duruma düşməmək üçün çoxdan özünün silahlanma siyasətini şaxələndirib və hərb texnikanı və sistemləri təkcə İsraildən almır. Ermənistanın 1 nömrəli müttəfiq Rusiya, Belarus, qardaş Türkiyə, Pakistan, bəzi Avropa ölkələri də bizim silah tədarükçülərimiz sırasındadır.

Məsələn, az öncə Minskdə səfərdə olan Azərbaycanın müdafiə naziri Zakir Həsənov Belarusun qabaqcıl hərbi-sənaye müəssisələrində olmuş, ölkənin siyasi və hərbi rəhbərliyi tərəfindən qəbul olunmuşdu. Səfərdən sonra məlum oldu ki, KTMT üzvü olan Belarusla bu qurumun üzvü olmayan Azərbaycan arasında "Polonez" müasir raket sistemlər ilə bağlı anlaşma əldə edilib - hansı sistemlər ki, "İsgəndər" komplekslərinin analoqu sayılır.

O vaxt bəzi Rusiya KİV-ləri bu anlaşmanın xüsusən də Rusiyada qıcıq doğuracağını yazmışdı. Belarusun KTMT üzrə müttəfiqi Ermənistanda isə əməlli-başlı hay-küy qalxmış, prezident Aleksandr Lukaşenko erməni xalqına qarşı cümlə xəyanətlərdə suçlanmışdı. Rəsmi Minsk də cavabında bəyan eləmişdi ki, Belarus müstəqil siyasət yürüdür və Azərbaycanla hərbi əməkdaşlığı heç nəyə baxmadan davam etdirəcək.

*****

**Yeri gəlmişkən, dünən bəlli olub ki, Rusiya Azərbaycana "Polonez"lərin satılmasından narahat deyil.** "Belarusun Azərbaycana "Polonez" reaktiv sistemlərini tədarük etməsi Rusiyanı narahat etmir". Bunu "Kommersant"a müsahibəsində Rusiya Hərbi Texniki Əməkdaşlıq üzrə Federal Xidmətinin rəhbəri Dmitri Şuqayev deyib (axar.az).

"Bəli, Azərbaycan bu gün təkcə bizimlə yox, digər tərəfdaşları ilə, xüsusilə də beloruslarla əməkdaşlıq edir. Bu, bizi narahat etmir. Birincisi, biz sağlam, normal rəqabətin tərəfdarıyıq, ikincisi isə hər iki ölkə MDB-yə üzvdür. Bu halda biz necə buna qarşı ola bilərik? Əgər Azərbaycan-Belarus hərbi texniki əməkdaşlığı sağlam məntiq çərçivəsində baş verirsə, biz heç kimə heç nəyi diktə edə bilmərik və bunu etməyə də hazırlaşmırıq", - deyə o əlavə edib.

*****

Üçüncü yandan, Ermənistanın yeni rəhbərliyi də artıq anlamamış deyil ki, işğal faktı qala-qala İrəvan heç vaxt Bakı ilə silahlanma yarışına girmək gücündə olmayacaq. Özünü qərbyönlü kimi qələmə verən Paşinyan hökuməti də Rusiyadan ucuz, daxili bazar qiymətinə və minimal faizlə verilən kreditlər hesabına silahlar almağa ümid eləmək zorundadır.

Yəni rəsmi İrəvan həqiqətən bölgədə sürətlə silahlanmadan səmimi şəkildə narahatdırsa, o zaman bunun gerçək səbəbinə baxmağa özündə cəsarət tapmalıdır. Əsas səbəb isə əlbəttə ki, İrəvanın işğalçılıq siyasətidir. Bu siyasət qaldıqca Azərbaycanın sürətlə silahlanması da, böyük müharibə riski də aradan qalxmayacaq. Demək, erməni tərəfinin müharibə təlaşı da azalmayacaq, əksinə, getdikcə artacaq...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019

**ABŞ-dakı "Freedom House" beynəlxalq hüquq-müdafiə təşkilatı 2019-cu il hesabatında Azərbaycanı "azad olmayan" dövlətlər sırasında göstərib. Siyasi hüquqlar və mülki azadlıqlara həsr olunan hesabatda Azərbaycan həmçinin Cənubi Qafqazda yeganə "azad olmayan" ölkə kimi qiymətləndirilib.**

# "Freedom House"un sərt hesabatı narazılıq yaratdı

## Azərbaycanın "azad olmayan ölkə" adlandırılması böhtan, qərəz kimi dəyərləndirildi...

"2019-cu il dünya ölkələrində azadlığın vəziyyəti haqqında" adlı hesabatda Azərbaycanın 11 xal topladığı deyilir. Ermənistan 51, Gürcüstan isə 63 xal əldə edərək "qismən azad" ölkələr siyahısında yer alıb. Sənəddə yazılır ki, siyasi hüquqlar və vətəndaş azadlıqları göstəricilərinə görə, Azərbaycan, Türkiyə, Ukrayna, Gürcüstan geriləyib, Ermənistan irəliləyib. İran və Rusiya isə eyni göstəricilərdə qalıb. Sənəddə həmçinin Azərbaycan iqtidarına qarşı sərt tənqidi fikirlər yer alıb. Orada qeyd edilib ki, Azərbaycan hakimiyyəti ölkədə media və vətəndaş cəmiyyəti azadlıqlarının qorunduğunu və siyasi opponentlərinə qarşı hər hansı repressiya aparılmadığını bildiriblər.

Rəsmi Bakı "Freedom House"un bundan əvvəlki hesabatlarını qərəzli hesab etdiyi kimi, sonuncunu da qərəzli hesab edir.

**Milli Məclisin hakim partiyadan olan deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu cür hesabata Azərbaycan tərəfindən etimad ola bilməz:** "Çünki bu hesabatı hazırlayan "Freedom House" həmişə Azərbaycana qarşı qərəzli olub. Əgər "Freedom House" bu dəfə Azərbaycanla bağlı əsl həqiqətləri, reallıqları yazsaydı, mən onda təəccüblənərdim. Çünki bu təşkilat Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi gündən daim Azərbaycana qarşı eyni şeyləri yazır, qərəz nümayiş etdirir. Azərbaycanda heç bir müsbət işi bu təşkilat qeyd etmir. Bunun da səbəbləri ondan ibarətdir ki, həmin təşkilat erməni lobbisi vasitəsilə maliyyələşir. Bunların idarə heyətində bir neçə erməni də var. Xüsusən Qafqaz üzrə hesabatlara baxanda həmişə görürük ki, Azərbaycanı daim "qara rəng"də görürlər. Ona görə ki, Azərbaycana qarşı bunların qərəzli mövqeləri var. İnsan hüquq və azadlıqları ilə verilən fikirlər hamısı qərəzlidir və təmənnalıdır. Azərbaycanda olan iqtisadi inkişaf, aparılan islahatları açıq-aşkar görməzlikdən gəlirlər. Bu cür qərəzli bəyanatın Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur. Azərbaycan öz yolu ilə gedir və bu yolla da davam edəcək. Azərbaycanda olan azad demokratik ədalətli seçkilər heç bir yerdə yoxdur. Azərbaycan qədər seçkilərə diqqət yetirən, seçkilərin tam stabil, sakit, azad keçirildiyi heç bir yer yoxdur. Ona görə də seçkilərlə bağlı həmin hesabatda yazılanlar tamamilə əsassızdır. Bu hesabat adlanan söz yığnağı "Freedom House" təşkilatının Azərbaycana qarşı növbəti böhtanı və qərəzidir".



Bəxtiyar Sadıqov



Əliməmməd Nuriyev

**B.Sadıqov qeyd etdi ki, Azərbaycan müstəqillik illərində, xüsusən də son 15 ildə sürətlə inkişaf edib:** "Əgər "Freedom House" obyektiv təşkilatdırsa, bu inkişafı hesabatlarında yazmalıydı. Lakin heç zaman yazmırlar. Çünki qərəzlidirlər, Azərbaycanın inkişafını götürməyən qüvvələrin sifarişi, tövsiyəsi və göstərişləri ilə Azərbaycan barədə fikirləri hesabatlarına daxil edirlər. Azərbaycan dünyada ən tolerant, bütün millətlərin heç bir fərq qoyulmadan azad yaşadığı ölkə kimi dünyada tanınır. "Freedom House" bunu da görməzlikdən gəlir. Bir dəfə də olsun hesabatlarında bu müsbət məqamı dünyaya nümunə kimi göstərmir. Əgər bu qurum Azərbaycandakı müsbət işləri, Azərbaycanın dünyaya, regiona verdiyi töhfələri görmürsə, problemi Azərbaycanda yox, öz gözündə axtarmalıdır. Dünyaya inteqrasiya eləyən, müstəqil siyasət yürüdən, bütün azadlıqların təmin olunduğu Azərbaycanı azad olmayan ölkə adlandırıb, Ermənistan kimi forpost ölkəni azad ölkə adlandırmaq bu təşkilatın məsələlərə necə qərəzli yanaşdığını göstərir".

**Deputatın sözlərinə görə, bütün araşdırmalar göstərir ki, "Freedom House" təşkilatı müxtəlif qurumların sifarişini yerinə yetirir:** "Bu qurumun maliyyə qaynaqlarına baxın, idarə edilməsinə diqqət yetirin. Bütün araşdırmalar göstərir ki, bu qurum, demək olar ki, müəyyən maliyyə qurumlarının sifarişini yerinə yetirir. Ayrı-ayrı qurumlar var ki, onların dünyanın müəyyən bölgələrində məqsədləri olur və məqsədlərinə nail olmaq üçün demokratiya, insan haqları adından bir pərdə kimi, bir vasitə kimi istifadə edirlər. "Freedom House" isə bu vasitədə alət rolunu oynayır. Ona görə də onun hesabatları birmənalı olaraq böhtan və qərəzli cümlələrdən ibarət olur. Biz dəfələrlə adını beynəlxalq qurum qoyan və əslində müxtəlif maliyyə mərkəzlərinin və ya dairələrin sifarişini yerinə yetirən bəzi təşkilatlar barədə fikirlərimizi demişik. Bunlardan biri də "Freedom House"dur.

O ki qaldı vətəndaş cəmiyyəti məsələsinə, Azərbaycan vətəndaş cəmiyyəti quruculuğu istiqamətində əldə etdiyi uğurlarla MDB məkanında, bəlkə də ən birinci yerdədir. Bizim ölkəmizdə vətəndaş cəmiyyətini inkişaf etdirən və onu möhkəmləndirən həm qanunvericilik bazası var, həm də maddi dəstək var. Hökumət büdcədən vətəndaş cəmiyyətinin inkişafı üçün xüsusi vəsait ayırır, müxtəlif qrantlar ayırır. Və bunun vasitəsilə vətəndaş cəmiyyətinin inkişafına təkan verib. Azərbaycan qanunları isə bunu daha da möhkəmləndirir. "Freedom House" kimi qərəzli təşkilatlar isə heç bir müsbət işi, tendensiyanı heç vaxt görmək istəmirlər".

**Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, Prezident yanında Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev də hesabatı qərəzli sayır. O deyib ki, "Freedom House"un Azərbaycana qarşı bir çox məsələlərdə tutduğu mövqe o qədər də obyektiv hesab edilə bilməz:** "Bir çox hallarda qərəzli mövqedə yanaşılır. Azərbaycanda, əlbəttə ki, problemlər var, amma bu, o səviyyədə deyil ki, Azərbaycan azad olmayan ölkələr siyahısında yer alsın. Əgər Azərbaycanda hüquq və azadlıqlar qorunmasaydı, Azərbaycan bir sıra dünya reytinqlərində mövqeyini yaxşılaşdıra bilməzdi".

**Əliməmməd Nuriyev "Freedom House" təşkilatının Azərbaycanla bağlı məlumatlar hazırlayan mənbəyinin dəyişməsini, bir neçə fərqli mənbələrə əsaslanmasının lazım olduğunu düşünür:** "Əsas məsələ odur ki, təşkilat hansı mənbələrlə işləyir. Bu mənbələr heç vaxt açıqlanmır. Görünən ondan ibarətdir ki, "Freedom House"a verilən informasiyaların mənbəyinin özündə problem var və bu problemlər istər-istəməz onun qiymətləndirməsinə təsir göstərir. Azərbaycanın daxilində də ölkəyə qərəzli olduğunu hər zaman nümayiş etdirən insanlar var. Onlar belə qurumları özlərinin yanlış informasiyası ilə təmin edirlər, nəticədə belə qiymətləndirmə alınır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Necə olur ki, bir ölkədə hamı haqlı olur?..



**Hüseynbala SƏLİMOV**

**Bu on illər ərzində mətbuatla bağlı o qədər iradlar, hətta ittihamlar eşitmişəm ki, saysan, əməlli-başlı böyük bir ədəd alınar.**

Amma onlardan yalnız biri, mənə elə gəlir ki, ən orijinalı yadımda qalıbdır. Bir vaxtlar qocaman jurnalist həmkarlardan biri qəzetləri alınə götürüb deyirdi: "Bu kağız parçası üçün dünyada nə qədər ağac kəsilir və biz də buna dözürük".

Axır bir dəfə ona dedim ki, bəy, məgər insanlar meşələr, ağaclar, ümumiyyətlə, yaşıllıqlarla bağlı məlumatları, sevinc və ya həyəcan dolu xəbərləri elə bu kağız parçasından almırlarmı?..

Ölkədə yazılı media ilə bağlı ən son qərarlar haqdakı məlumat və məqalələri oxuyanda qeyri-ixtiyari olaraq bu epizod yadıma düşdü və dərhal fikirləşdim ki, nə yaxşı ki, kağız mediayaya oppnentlik edənlərin yadına bu cür arqumentlər düşmür, yoxsa qəzetlərin ekologiyaya vurduğu ziyandan da danışardılar...

Hələliksə çox şükür ki, diqqətlər sosial ekologiyaya yönəlibdir - burada isə qəzetlərin faydasından da danışmaq olar, ziyanından da.

Doğrusu, qəzetlərə qarşı yeni tələblər haqqındakı bütün yazıları izləməyə çalışdım. Deyim, yetərincə optimist proqnozlara və yozumlara da rast gəldim. Özüm də jurnalist olduğumdan, xüsusən də əlli beş yaşın astanasında peşəmi dəyişməyə qəti həvəsim qalmadığından əlbəttə ki, mən pozitiv yüklü yazılara, yozumlara və proqnozlara üstünlük verdim, onlara inanmağa çalışdım.

Bu qəbildən olan şərhlərə inansaq, yazılı media mühitinin bir az da liberallaşacağı gözlənir və güman, bu az da olsa, qəzetlərin dirçəlməsinə səbəb olacaq.

Amma müəyyən səbəblər var ki, onlar hakimiyyətin media ilə bağlı siyasətindən asılı olmayaraq mətbuat üzərində domokl qılıncı kimi asılıb və bizə hər an xatırladır ki, ya on il tez, ya da gec, onsuz da bu qəziyyə baş verəcək...

Bunun ən birinci səbəbi əlbəttə internetin və internet mediasının çox geniş yayılmasıdır. Bu elə bir amildir ki, onunla mübarizə aparmaq da çox gülünc olardı. Sadəcə, mənim üçün qaranlıq qalan məqam budur ki, internetin Azərbaycandan daha geniş yayıldığı ölkələrdə belə yazılı media hələ də qalıbdır -düzdür, oralarda da tirajlar getdikcə azalır və insanlar daha çox internet versiyalarına müraciət edirlər, amma kağız da hələ də qalmaqdadır və bu şəxsən mənim üçün anlaşılmaz məqamdır...

Həm də yazılı medianın başqa bir xüsusiyyəti də var və elektron mediada bu problem hələ həll olunmayıb. Bilirsiniz, qəzetlər özünəməxsus salnamə idi. Gələcək nəsillər bir çox məlumatları məhz buradan alacaqdı və onlara istinad edəcəkdi.

Bəs indi necə olacaqdır? İnternet mediasında məsələ hələ həll olunmayıbdır. Əlbəttə ki, burada da elektron arxivdən və ya bankdan danışmaq olar. Həm də televiziyaların da, radioların da arxivi, fondu var və bunlar da gələcək nəsillər üçün yardımçı olacaqlar. Amma bizə elə gəlir ki, obyektiv və subyektiv səbəblərdən yazılı medianın yayın sferası dar olsa da əhatə spektri daha geniş idi, burada günün nəbzi daha ətraflı və dolğun hiss edilir, daha geniş siyasi - ictimai palitra təqdim olunurdu oxuculara...

Söz yox ki, başqa bir problem də var. Sirr deyil ki, yazılı medianın müəyyən səbəblərdən xərclərinin çoxunu hökumət çəkir. Əlbəttə ki, əgər reklam və satış bazarı daha liberal olsaydı, internet versiyalarından da gəlir əldə edilsəydi vəziyyət fərqli olardı. Amma indi bu cür alınıbdır ki, qəzetlər əsasən hökumətdən aldıqları yardımların hesabına mövcuddurlar. Bir gün hökumət də deməli idi ki, mən 80-90 faizi təkrar üstünə qayıdan və makulaturaya çevrilən qəzetləri niyə maliyyələşdirməliyəm?

Əlbəttə, o, bunu deyərkən haqlı da olacaqdı, çünki yazılı medianın düşdüyü vəziyyətə görə hamıdan çox oxucular günahkardır - satışla bağlı səslənən iradlarda da bir az subyektivlik var, çünki bütün metro stansiyalarının çıxışında qəzet köşkləri qoyulub, oxumaq istəyən oradan da qəzet alardı, vacib deyil ki, qəzet mütləq stansiyanın içində satılsın!.. Odur ki, oxucularımızdan bir ricamız var; qəzetlərimizi xilas edək...

Amma oxucuların da hamısının olmasa da, bir qisminin özünə görə haqlı tələbi var; onlar da deyir ki, elə yazın ki, biz də alıb oxuyaq...

Nə demək olar? Bu da haqlı tələbdir. Elə bu ölkənin qəlziliyi də ondadır ki, burada adətən hamı haqlı olur və biz bunu hələ 90-cı illərin əvvəlində bir feleytonumuzda qeyd etmişdik. Ona görə də haradan, nədən başlayırsan, axırda bircə nəticəyə gəlirsən; nəsə bizimki alınmır, ya çox məşhur bir filmdə ("Uğur centlemenləri") deyildiyi kimi, anamız bizləri bazar ertəsi doğubdur, ya da ki, bəxt paylananda bizə ondan çatmayıbdır.

YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019

# Xaricdən fərdi qaydada gətirilən hansı mala rüsum ödənməlidir?

## Dövlət Gömrük Komitəsi açıqlama verdi; "Haqqında bəhs olunan məhdudiyyətlər yeni deyil, 2013-cü ildən, Nazirlər Kabinetinin qərarı əsasında tətbiq olunur"

**Bu günlərdə ölkə mətbuatında xaricə gedib-gələn ölkə vətəndaşlarının vətənə dönərkən alıb gətirdikləri mallara görə yeni qadağa və məhdudiyyətlərlə üzləşdiklərinə dair materiallar dərc olunur. Bildirilir ki, vətəndaşların şəxsi istifadə üçün alıb gətirdikləri malların bir qisminin gömrükdən keçirilməsində problemlər yaradılır. Gömrük əməkdaşları şəxsi istifadə üçün gətirilən malların sayına, məbləğinə qanunvericilik əsasında məhdudiyyət tətbiq olunduğunu bildirirlər.**



Dövlət Gömrük Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsindən "Yeni Müsavat"a verilən məlumata görə, haqqında bəhs olunan məhdudiyyətlər yeni deyil, 2013-cü ildən, Nazirlər Kabinetinin qərarı əsasında tətbiq olunur: "Biz bilmirik, niyə indi bü məsələni qaldırıblar. Nazirlər Kabinetinin 305 saylı qərarı beş ildir qüvvədədir".

Qeyd edək ki, Nazirlər Kabinetinin 305 saylı "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın təsdiq edilməsi barədə qərarına əsasən fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən malların təyinatı fiziki şəxsin səfərinin bütün halları nəzərə alınmaqla, malların gömrük sərhədindən fiziki şəxsin və onun ailə üzvlərinin şəxsi istifadəsi və istehlakı məqsədləri üçün keçirildiyi yəqinləşdirilməklə, onların xassələri, miqdarı, habelə sərhəddən keçirilməsinin mütəmadiliyi əsasında gömrük orqanları tərəfindən müəyyən edilir. Fiziki şəxs özünün və ailə üzvlərinin şəxsi istifadəsi və istehlakı məqsədləri üçün ən azı 2 (iki) ədəd eyni və (və ya) eynicinsli malı bu qaydaların 2.1.2-ci yarımbəndi ilə müəyyən edilmiş hədlər çərçivəsində güzəştli qaydada (gömrük ödənişləri ödəmədən) gömrük sərhədindən keçirmək hüququna malikdir.

Qaydaların 2.1.2-ci bəndində isə qeyd olunur ki, fiziki şəxslər tərəfindən təyinatı istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan hesab edilmiş aşağıda göstərilən mallar (aksizli mallar və avtonəqliyyat vasitələri istisna olmaqla) güzəştli qaydada (gömrük ödənişlərini ödəmədən) gömrük sərhədindən keçirilə bilər:

- səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan şəxsi əşyalar;

- Bu əşyalar istisna olmaqla, Azərbaycan Respublikasının gömrük ərazisinə (bundan sonra - gömrük ərazisi) hər təqvim ayı ərzində bir dəfə gətirilən ümumi gömrük dəyəri 1500 ABŞ dolları ekvivalenti məbləğindən (müşayiət edilən hər bir yetkinlik yaşına çatmamış fiziki şəxsə görə əlavə 500 ABŞ dolları ekvivalenti məbləğindən) artıq olmayan mallar;

- Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçməyən dərman vasitələri də daxil olmaqla, şəxsi istifadə üçün zəruri olan miqdarda dərman vasitələri;

- Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada açılmış vərəsəlik hüququ əsasında əldə edilmiş əşyalar (müvafiq təsdiqedici sənəd təqdim edilməklə);

- Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 188.1.1-ci maddəsi ilə müəyyən olunmuş aksiz vergisindən azadolmalar nəzərə alınmaqla, hər təqvim ayı ərzində bir dəfə 18 yaşına çatmış hər bir fiziki şəxs tərəfindən şəxsi istifadə üçün gömrük ərazisinə gətirilən 1,5 litr alkoqollu içki, 200 ədəd siqaret və 20 qram qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, cilalanmış, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almaz;

- Hər təqvim ayı ərzində bir dəfə gömrük ərazisinə gətirilən 30 kiloqrama qədər müxtəlif növ ərzaq məhsulları;

- hər təqvim ayı ərzində bir dəfə gömrük ərazisindən aparılan 5 kiloqrama qədər nərə cinsli balıq və 125 qrama qədər nərə cinsli balıq kürüsü;

Qaydalara görə, fiziki şəxslər tərəfindən gömrük ərazisinə gətirilən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük dəyəri (aksizli mallar və avtonəqliyyat vasitələri istisna olmaqla) bu Qaydaların 2.1.2-ci və 2.1.4-cü yarımbəndləri ilə müəyyən edilmiş hədlərdən artıq olduğu halda, ümumi gömrük dəyərindən müvafiq yarımbəndlərdə göstərilən məbləğlər çıxılmaqla, bu malların gömrük rəsmiləşdirilməsi xarici-iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə uyğun gömrük ödənişləri alınmaqla sadələşdirilmiş qaydada həyata keçirilir.

**Fed.az-ın yazdığına görə, xaricdən gələn şəxs limiti keçdiyi halda gətirdiyi əşyaları hətta vergisini ödəyib gətirmək istəsə də, bunu etmək çox çətindir:** "Problem ondadır ki, həmin əşyaların rəsmiləşdirilməsi ilə bağlı çox qəribə, hətta anlaşılmaz qaydalar mövcuddur. Belə ki, qaydalara görə, xaricdən malları kommersiya məqsədilə gətiriləndə (hətta 2-3 ədəd olsa da) onun rəsmiləşdirilməsi üçün yük daşınma kağızı (karqo sənədi) tələb olunur. Belə ki, Nazirlər Kabinetinin 2014-cü il tarixli 263 saylı qərarına görə, malın bəyan edilməsi zamanı onun daşınma xərcləri də göstərilməlidir. Daşınma xərclərini göstərilməsi üçün isə karqo sənədi tələb olunur. Bu, yük şirkətinə verilən sifarişin surəti və sair ola bilər. Bu sənəd olmasa, həmin malları rəsmiləşdirmək mümkün deyil, nəticədə həmin malların nəinki icazə verilən 2 ədəddən artıq olan hissəsi, ümumiyyətlə, hamısı müsadirə edilərək anbara vurulacaq, sonradan geri qaytarılacaq.

Xaricə səyahət gedən və ölkəyə qayıdanda özü üçün bir neçə əşya alan şəxslər isə aldıqlarını özləri ilə gətirdiyinə görə (yəni 2-3 suveniri və əşyanı karqo ilə gətirmək mənasızdır), bu malları, ümumiyyətlə, rəsmiləşdirə bilməyəcək, çünki onların təbii olaraq karqo sənədi mövcud deyil. Yalnız ölkəyə təyyarə ilə gələn şəxslər özləri ilə gətirdikləri əşyaları təyyarədə ayrıca yük kimi gətirsələr və yük talonunu göstərsələr həmin əşyalar kommersiya məqsədilə gətirilən kimi rəsmiləşdiriləcək. Qalan hallarda onların ölkəyə buraxılmasında problem ola bilər".

**DGK-dan isə "Yeni Müsavat"a bildirilib ki, Nazirlər Kabinetinin 305 saylı qərarının 1.5 bəndinə əsasən fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən malların təyinatı fiziki şəxsin səfərinin bütün halları nəzərə alınmaqla, malların gömrük sərhədindən fiziki şəxsin və onun ailə üzvlərinin şəxsi istifadəsi və istehlakı məqsədləri üçün keçirildiyi yəqinləşdirilməklə, onların xassələri, miqdarı, habelə sərhəddən keçirilməsinin mütəmadiliyi əsasında gömrük orqanları tərəfindən müəyyən edilir:** "Fiziki şəxs özünün və ailə üzvlərinin şəxsi istifadəsi və istehlakı məqsədləri üçün ən azı 2 (iki) ədəd eyni və (və ya) eynicinsli malı bu Qaydaların 2.1.2-ci yarımbəndi ilə müəyyən edilmiş hədlər çərçivəsində güzəştli qaydada (gömrük ödənişləri ödəmədən) gömrük sərhədindən keçirmək hüququna malikdir. Fiziki şəxslər tərəfindən gömrük ərazisinə gətirilən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük dəyəri (aksizli mallar və avtonəqliyyat vasitələri istisna olmaqla) bu Qaydaların 2.1.2-ci və 2.1.4-cü yarımbəndləri ilə müəyyən edilmiş hədlərdən artıq olduğu halda, ümumi gömrük dəyərindən müvafiq yarımbəndlərdə göstərilən məbləğlər çıxılmaqla, bu malların gömrük rəsmiləşdirilməsi xarici-iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsinə uyğun gömrük ödənişləri alınmaqla sadələşdirilmiş qaydada həyata keçirilir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**



Vüqar Hüseynov

# Kənd təsərrüfatı texnikasının güzəştli şərtlərlə yeni satış qaydası

## Nazirlik heç bir şirkətə fərq qoyulmayacağına zəmanət verir

**Fevralın 15-dən kənd təsərrüfatı texnikasının yeni qaydalarla satışına başlanacaq. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, artıq fermerlər müvafiq texnikanı güzəştli qiymətlərlə təkcə "Aqrolizinq"dən deyil, bütün təchizatçı şirkətlərdən ala biləcəklər: "Texnikanın qiymətləndirmə nəticəsində müəyyən edilən satış dəyərinin 20 faizini ilkin ödəniş olaraq fermer, 40 faizini isə subsidiya (güzəşt) şəklində Aqrar Kredit və İnkişaf Agentliyi ödəyəcək. Qiymətin qalan hissəsi bankda maksimum 5 il müddətinə kredit şəklində rəsmiləşdiriləcək. Kredit faizlərini fermer deyil, dövlət ödəyəcək".**

Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynovun "Yeni Müsavat"a dediyinə görə, əvvəllər kənd təsərrüfatı texnikasının satışı zamanı güzəştlər yalnız "Aqrolizinq" ASC-dən alınan texnikaya tətbiq olunurdu: "Cənab prezidentin imzaladığı "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərmanın tətbiqi ilə əlaqədar artıq texnika satışında subsidiyalar bütün təchizatçı şirkətlərdən alınan kənd təsərrüfatı texnikasına şamil olunacaq. Artıq fermerlərimiz müvafiq texnikanı güzəştli qiymətlərlə təkcə "Aqrolizinq"dən deyil, bütün təchizatçı şirkətlərdən ala bilərlər. Texnikanın alqı-satqısı "Aqrolizinq"də deyil, müvəkkil banklarda rəsmiləşdiriləcək".

**Şöbə müdiri bildirir ki, prosedur sadədir:** "Fermer təchizatçı şirkətlə texnika alışı barədə razılaşır, həm fermer, həm təchizatçı şirkət banka müraciət edərək alqı-satqını rəsmiləşdirirlər. Azərbaycanda kənd təsərrüfatı texnikasının satışı ilə məşğul olan təchizatçı şirkətlər kifayət qədərdir. Yeni qaydalara əsasən, bütün şirkətlərdən alınan texnikanın dəyərinin 40 faizi subsidiyalaşdırılır".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019

# İrəvanın Qarabağla bağlı radikallaşmasının ilginc səbəbləri ortaya çıxır

## Paşinyanının başı dərddə; Rusiya səfiri baş nazirə meydan oxuyan daşnaklarla görüşdü; Kreml Ermənistan hökumətinə sürpriz hazırlayır?

**Dağlıq Qarabağ münaqişəsi zonasında gərginliyin müəyyən ölçüdə azaldılmasına nail olunub. Bu barədə KTMT-nin Birləşmiş qərargahının rəisi, general-polkovnik Anatoli Sidorov bildirib.**

Onun sözlərinə görə, beynəlxalq vasitəçilərin və region dövlətlərinin birgə səyləri ilə son aylar təmas xəttində gərginliyi azaltmaq mümkün olub. Bu vasitəçilər və region dövlətləri Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına dair sonrakı işlər üçün zəruri olan dialoqu fəallaşdıra biliblər.

"Azərbaycan və Ermənistan rəhbərlərinin müntəzəm xarakter almış görüşləri etimadın möhkəmləndirilməsinə və sülh prosesi üçün şəraitin yaradılmasına yönəlmiş tədbirlərin görülməsinə dair müəyyən razılaşmaların əldə edilməsinə imkan yaradıb" - general qeyd edib. Virtualaz.org-un məlumatına görə, bununla belə, Sidorov qeyd edib ki, Qafqaz kollektiv təhlükəsizlik regionunda mürəkkəb vəziyyət qalmaqdadır. Bu situasiya ilk növbədə region sərhədləri boyu yüksək münaqişə potensialının olması, habelə ABŞ və Qərbin regionda mövqelərini möhkəmləndirmək səyləri ilə bağlıdır.

Rus generalın dediklərini ilk baxışda təsdiqləmək olar. Əslində bir sıra müşahidəçilər də təsdiqləyir ki, son aylar ərzində Qarabağ ətrafında mövcud olan sakitlik problemin başlanmasından üzü bəri müşahidə olunmayıb. Atəşkəsin statistikası da bunu təsdiqləyir. Lakin ABŞ Milli Kəşfiyyatının açıqlamasını da unutmaq olmaz. Həmin açıqlamada müharibə xəbərdarlığı edilirdi. Deməli, Qarabağ bölgəsindəki nisbi sakitliyi "tufanqabağı sakitlik" də adlandırmaq olar.

Xüsusilə də Ermənistanın baş naziri Nikol Paşinyanın Paris və Davos görüşlərində müşahidə olunan pozitiv atmosferə tam zidd mövqelər sərgiləməsi vəziyyəti gərginləşdirməyə xidmət edir. Xatırlayırsınızsa, Serj Sərkisyan da daxildə özünə qarşı sərt etirazlar baş qaldıran zaman diqqəti xarici düşmənə yönəldir və ya təmas xətti, hətta cəbhə boyunca təxribatlara əl atırdı. Sərkisyan özünü xilas etməkdən ötrü hətta Ermənistan helikopterinin mövqelərimizə yaxınlaşmasına əmr verməkdən və Azərbaycan hərbçiləri tərəfindən onun məhvinə faktiki olaraq şərait yaratmaqdan da çəkinməmişdi. Ermənistan rəhbərliyində olan şəxslərin hakimiyyətini qorumaq üçün hər şeyə getdiklərini elə 2008-ci ilin 1 mart hadisələri də təsdiqləyir.

Bu mənada N.Paşinyanın daxildəki etirazları və erməni diasporunun təhdidlərini nəzərə alaraq Qarabağ məsələsində sərt ritorikaya üstünlük verdiyi şübhə doğurmur. Artıq erməni ekspertlər özləri də hökumət başçısının oyun oynamasının fərqindədir.

**"Paşinyan Düşənbə danışıqlarından bu yana Qarabağın həlliylə bağlı zamanı uzatmağa çalışıb". Axar.az xəbər verir ki, bu iddia ilə "Daşnaksütyun" Partiyasının rəsmi yayım orqanlarından biri olan "Yekramas" portalı çıxış edib. Sayt Paşinyanın "sülh qarşılığında torpaq" formulunu özündə əks etdirən "Bolton planı"nı reallaşdırmağa, yəni real güzəştlərə hazır olmadığını bildirib:** "Aydındır ki, proses dönəmində Paşinyan "Bolton planı"nın reallaşdırılması zamanı hakimiyyətini birinci prezident Levon Ter-Petrosyan kimi itirmək təhlükəsi hiss edib. Ona görə də Paşinyan geriyə çəkilərək, danışıqları dalana dirəyib. Baş nazirin problemlə bağlı dəqiq görüntüyə sahib olmaması sayəsində Ermənistan tükdən asılı vəziyyətə düşüb. Bizim Rusiya ilə münasibətlərimiz gərgindir, açıq şəkildə konfliktin hərbi həlli olduğunu bəyan edən məyus olmuş Azərbaycan və özünü aldadılmış hiss edən, planı sona qədər icra edilməyən ABŞ var. Paşinyanın son zamanlar apardığı siyasət böyük optimizm yaratmır. Belə ki, artıq Paşinyanın incə oyun aparıb hakimiyyətdə qalmaqla bərabər, dövləti hərbi konfliktə cəlb etməyəcəyi inandırıcı görünmür".

**Paşinyanın qısa hakimiyyəti dövründə artıq zəifləməyə başlayan mövqeləri fonunda Qarabağ klanının revanşa hazırlaşdığı hər an hiss olunur. Qondarma "dqr"in keçmiş "müdafiə naziri" Samvel Babayan isə 2020-ci ildə Azərbaycanın işğal altındakı ərazilərində keçiriləcək "prezident seçkilərində" iştirak etməyə hazırlaşır. Virtualaz.org xəbər verir ki, Babayan bu haqda AzadlıqRadiosunun erməni xidmətinə müsahibəsində bildirib. O deyib ki, namizədliyini irəli sürmək üçün azı 10 il Qarabağda yaşamalı olduğunu nəzərə alır və artıq mart ayında Qarabağ sakinləri arasında bu məsələ ilə bağlı imza toplamağa hazırlaşır.** "Qarabağın "prezidenti" Bako Saakyanla bundan əvvəlki görüşümdə dedim ki, gəlin xətt çəkək, hər şeyi-münaqişələri, problemləri unudaq. Mənə elə gəlir ki, onlar Qarabağın və Ermənistanın vəziyyətinin ciddi olduğunu başa düşməlidir. Vəziyyət o qədər ciddidir ki, bir-biri ilə münaqişə düzgün yanaşma deyil, biz dövləti itirə bilərik, əraziləri itirə bilərik. Bunu etmək lazım deyil" - Samvel Babayan deyib.



**Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Davos görüşündə Qarabağ konfliktini müzakirə etməsi ətrafında erməni ekspertlərin baş sındırması isə ondan xəbər verir ki, Paşinyan nə qədər radikallaşmağa çalışsa da, öz xalqı belə ona etibar etmir və torpaqları qaytaracağından ehtiyatlanır. Ermənistanın eks-deputatı Ruben Akopyan deyib ki, xarici siyasət sferası kölgədə və kulisdə olur:** "Hesab etmirəm ki, Davosda müzakirə edilənlər dərhal açıqlanmalıdır. Azərbaycan tərəfinin görüşdən öncə söhbətin nədən gedəcəyi ilə bağlı tam məlumatlı olması artıq başqa məsələdir. Bizim baş nazir görüşün 1,5 saat davam etdiyini və təsadüfi olduğunu deyəndə bir növ kəndçi hiyləgərliyi etməyə çalışdı. Aydın olan odur ki, tərəflər Qarabağdan danışıblar və növbəti gün məhz Davosda Paşinyana Bolton zəng etdi və söhbət Qarabağdan getdi", - deyə o bildirib. (Axar.az) **Onun sözlərinə görə, Paşinyan məsləhətlərə qulaq asmayacağı halda bütün Ermənistan ağır məsuliyyət altında qalacaq:** "Xalqları sülhə hazırlayın" deyəndə nəyinsə baş verdiyini, prosesin getdiyi nəzərdə tutulur. Biz gərək səhvlərimizdən nəticə çıxaraq. Bütün bu dövr ərzində Azərbaycan tərəfi udub. Paşinyanın icra edilməyəcək razılaşma barədə hesabat vermək vaxtı çatıb. Xalqı həyəcanlandırmaq istəməzdim, amma müharibə heç də uzaqda deyil. Allah eləsin ki, mən yanılım". Azərbaycanı savaşa hazırlaşmaqda ittiham edən Akopyan son günlər atəşkəs xəttindəki sakitliyin guya Azərbaycanın maraqlarına cavab vermədiyini deyib.

Politoloq Tofiq Abbasov "Yeni Müsavat"a bildirdi ki, Paşinyan faktiki olaraq hazırlıqsız siyasətçi təəssüratı yaradır: "Çünki onun təmtəraqlı, səs-küylü hakimiyyətə gəlməsi, özlərinin dediyi kimi, demokratiyanın "fontan" vurmasının əsasında ciddi bir proqram, tutarlı bir antiböhran yanaşması yoxdur. Söhbət iflic vəziyyətdə olan ölkədən gedir. Bir xəstəlik varsa, təbii ki, gərək onun simptomları bəlli olsun. Ermənistanın xəstəliyi çox ağır və sistemli xəstəlikdir. Onlar ilk növbədə bilməlidirlər ki, iqtisadiyyatın geriləməsi, ölkədə sosial-psixoloji böhranın səbəbi Qarabağ problemidir. Yəni əgər onlar həqiqətən də bütün bəlaların, çatışmazlıqların səbəbini tapmaq və mübarizə aparmaq istəyirlərsə, gərək bilsinlər ki, işğalçı siyasətin, Azərbaycanla bağlı yalan, iftira münasibətin axırı belə olmalı idi".

**Ekspert Paşinyanın hazırkı vəziyyətini naqolay, zəif tərzdə gördüyünü bildirdi və dedi ki, bunun axırı yoxdur:** "Əgər belə davam edəcəksə, birincisi, bu adam hərəkət əsnasında vəziyyəti azca da olsa, düzəltməyə, özü üçün əlverişli vəziyyət yaratmağa çalışır. Bu şəkildə dövləti idarə etmək, hökumətə rəhbərlik etmək, bütün çağırışlara cavab tapmaq asan məsələ deyil. Digər tərəfdən, o, ancaq sözçülüklə məşğuldur". **T.Abbasovun fikrincə, Paşinyan bəlkə də Qarabağla bağlı ciddi addım atmaq istərdi:** "Ancaq buna onun təpəri, gücü və bazası çatışmır. Birincisi, gərək adamın ilk növbədə qətiyyəti olsun. Paşinyan bilir ki, Ermənistanın vəziyyətinin düzəlməsi Qarabağ probleminin həllindən keçir. Yəni ilk növbədə gərək İrəvan qoşunlarını işğal altındakı Azərbaycan ərazilərindən çıxartsın, bununla da kompromislərə hazır olduğunu bildirsin. İndi dəbə düşmüş, dillər əzbəri olmuş "biz əraziləri qaytarıb əvəzində sülh əldə etmək niyyətində deyilik və bunu müzakirə etməyəcəyik", deməsi onu göstərir ki, sadəcə, bu adamın vəziyyəti çox acınacaqlıdır. Bu, çəkiclə zindan arasında qalmış adam təsiri bağışlayır".

**Ancaq politoloq əmindir ki, hazırki pat vəziyyəti uzun müddət davam edə bilməz:** "Artıq 9 aydır ki, bu adam hakimiyyət gəlib, bu da simvolik müddətdir. Yəni 9 aya insan dünyaya gəlir. Bu qədər ki, Paşinyan hakimiyyətdədir, ancaq onun dilindən tutarlı fikir, arqument, ideya, müəyyən olunmuş yanaşma eşidilməyib. Azərbaycan bunlara möhlət verib ki, hökumətini formalaşdırandan sonra ortaya tutarlı mövqe qoysun. Lakin bunlar yoxdur. Paşinyan bir tərəfdən Qarabağ məsələsində geri çəkilməyə qorxur ki, Respublikaçılar Partiyasının başkəsənləri onun özü ilə haqq-hesab çürüdə bilərlər. Digər tərəfdən də ümid edir ki, hansısa təsadüf nəticəsində çıxış yolu əldə edə bilər".

****

"Ermənistanın baş naziri Nikol Paşinyanın davranışı onu göstərir ki, o, eyni vaxtda iki stulda oturmaq siyasəti həyata keçirir". Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmaq cəhdini teleqraf.com-a şərh edən deputat Elman Nəsirli belə deyib. Onun sözlərinə görə, biz yaxın gələcəkdə Rusiya-Ermənistan münasibətlərində yeni sürprizlərin şahidi ola bilərik. Qeyd edək ki, Ermənistan parlamentində bu ölkənin KTMT üzvlüyündən çıxmaq məsələsi müzakirəyə çıxarılıb.

N.Paşinyanın Qərbə meyllənməsi və anti-Rusiya siyasəti yürütməsi fonunda Rusiyanın İrəvandakı səfirinin Paşinyan əleyhdarlarını qəbul etməsi də maraqlı nüansdır.

Rusiya Federasiyasının Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Sergey Kopirkin tarixən Azərbaycanın torpaqlarının işğalında aparıcı rol oynamış terrorçu "Daşnaksütyun" Partiyasının rəhbər nümayəndələrini qəbul edib. (Moderator.az) Fevralın 5-də keçirilmiş görüşə "Daşnaksütyun"un büro sədri Armen Rustamyan, büro üzvləri Spartak Seyranyan, Arsen Ambartsumyan və partiya ali məclisinin təmsilçisi İşxan Saqatelyan qatılıb. Daşnaklar Rusiya səfirinə irqçi partiyanın Xankəndində keçirilmiş 33-cü ümumi yığıncağı, həmin tədbirdə qəbul edilmiş əsas qərarlar barədə ətraflı məlumat verib. Görüşün əsas mövzusu isə daşnakların Qarabağ probleminin həllinə və Ermənistanın xarici siyasətinə münasibəti ilə bağlı olub. Tərəflər həmçinin Ermənistan-Rusiya ittifaqı tərəfdaşlığının daha da inkişaf etdirilməsindən bəhs ediblər. Daşnaklar və Rusiya səfiri qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün müntəzəm görüşlərin vacibliyini xüsusi vurğulayıblar.

Qeyd edək ki, "Daşnaksütyun" rəhbərliyi öncəki illərdə ATƏT-in Minsk Qrupunun digər həmsədr ölkələrinin ABŞ və Fransanın səfirləri ilə də görüşlər keçirib. Ötən ay Qarabağda 8 günlük tədbir keçirən daşnaklar Paşinyanı açıq şəkildə hədələyib onu güzəştli sülhdən imtinaya çağırmışdılar. Bu, erməni baş nazir üçün sürpriz görüşdür.

Ekspertimizin dediyi kimi, Paşinyanın vəziyyəti doğrudan da ağırdır. Amma bizi onun vəziyyəti yox, Qarabağın taleyi maraqlandırır...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019

# Tramp Şimali Koreya liderini yola gətirə biləcəkmi?

## Siyasi ekspertlər budəfəki görüşü zəruri edən səbəb və mümkün nəticələrdən danışdılar...

**"Donald Tramp Konqresdəki çıxışında nüvə silahı istehsalından imtina üçün danışıqların davam edəcəyini açıqlayıb. Bu, müsbət qiymətləndirilməlidir". Bunu deputat Asim Mollazadə "Yeni Müsavat"a açıqlamasında ABŞ-Şimali Koreya əlaqələrinin dünyadakı siyasi gərginliyin azalmasına təsiri haqda danışarkən dedi.**

Onun sözlərinə görə, Şimali Koreyanın yumşalmasının səbəbi arxasındakı qüvvələrin çəkilməsidir: "Xüsusilə Çinin davranışı qeyd olunmalıdır. Çin üçün ABŞ-la münasibətlər çox əhəmiyyətlidir. Həmçinin Cənubi Koreyanın bu məsələdə böyük rolu olub. Sürətlə inkişaf edən Cənubi Koreya qardaş xalqı müharibədən çəkindirməyə çalışır və Koreyadaxili danışıqların bu məsələlərdə rolu danılmazdır".

**A.Mollazadə hesab edir ki, beynəlxalq ictimaiyyət sülh axtarışında yeni addımlar atmaqda davam etməlidir:** "Eləcə də Ermənistanın arxasında duran qüvvələr müharibənin həlli üçün bu ölkəni yola gətirmək istiqamətində müvafiq addımlar atmalıdırlar".

**Politoloq Sülhəddin Əkbər hesab edir ki, bu cür görüşlərə əvvəlcədən yüksək səviyyəli hazırlıq gedir:** "Hər hansı razılıq olmasaydı, görüş planlaşdırılmazdı. Bu görüşdə müəyyən anlaşmalar olacağı gözlənilir. Ancaq indidən konkret fikirlər söyləmək çətindir".

**Siyasi şərhçi Elxan Şahinoğlu Trampın Kim Çen İnlə ilk görüşünü xatırlatdı:** "Mənə



aydın olmadı ki, Tramp görüşdü, dedi ki, anlaşdıq. Amma Şimali Koreya lideri nüvə silahı istehsalını davam etdirirsə, hansı anlaşmadan söhbət gedə bilər? Görünür, şifahi anlaşma olub. Bundan əvvəl Mərkəzi Kəşfiyyat İdarəsinin hesabatı olmuşdu ki, Şimali Koreya nüvə silahı istehsalını davam etdirir. Tramp özü MKİ-nin hesabatına etiraz elədi. Ona görə hər an vəziyyət dəyişə bilər".

**Politoloqun fikrincə, Şimali Koreya lideri dünyaya yenidən elan edə bilər ki, nüvə silahı istehsalını davam etdirəcəyəm:** "O zaman Trampın rəqibləri onun üstünə gedəcəklər ki, bu, necə anlaşmadır. O halda Tramp Şimali Koreyaya qarşı daha sərt addımlar ata bilər. Bu razılıqdan əvvəl Tramp hərbi gəmilərini Şimali Koreya sahillərinə göndərdi və müşahidəçilər toqquşma ehtimalından danışırdılar. Sonra Şimali Koreya lideri geri addım atdı. Ondan sonra tərəflər arasında yazılı müqavilə imzalanmadı. Ola bilsin ki, ortamın gərginləşməməsi üçün görüş təşəbbüsü ilə çıxış edə bilərlər və müəyyən razılaşmalar əldə oluna bilər".

Qeyd edək ki, prezident Donald Tramp fevralın 27-28-də Vyetnamda Şimali Koreya lideri Kim Çen İnlə iki günlük görüş keçirəcək. Məqsəd Şimali Koreya liderini nüvə silahı istehsalından imtina etməyə inandırmağa yönəlmiş səyləri davam etdirməkdir.

Tramp deyib ki, Kim Çen İnlə onun davamlı əlaqələri və keçən il iyun ayında onların Sinqapurdakı ilk görüşü sülhə yol açıb. Lakin nüvəsizləşdirmə prosesinə dair hələlik konkret plan yoxdur. ABŞ Milli Kəşfiyyat İdarəsinin direktoru Den Kouts keçən həftə Konqresdə çıxış edərkən deyib ki, Amerika kəşfiyyat əməkdaşları Kim Çen İnin öz ölkəsindəki nüvə silahlarını məhv edəcəyinə və ya bu silahları artırmaq imkanından imtina edəcəyinə inanmırlar.

Çünki bu silahlar Şimali Koreya rejiminin salamat qalması üçün vasitədir. Keçənilki iyun görüşündən sonra peyklə çəkilmiş videodan məlum olur ki, Şimali Koreya öz hərbi zavodlarında nüvə materialları istehsalını davam etdirir.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Edama məhkum olunmuş "ixvançı"nın Sisiyə verilməsi qalmaqal yaratdı

## "Müsəlman Qardaşlar" üzvünün İstanbuldan qandallanaraq Qahirəyə göndərilməsi rezonansa səbəb olub

**Türkiyə polisinin edama məhkum olunmuş və axtarışda olan şəxsi Misirə təhvil verməsi ölkədə ciddi qalmaqala səbəb olub. Hadisənin hansı şəraitdə baş verməsi, arxasında hansı məqsədlərin dayanması ictimai rəyi bölüb.**

Qeyd edək ki, bəhs olunan hadisə bu ilin 16 yanvarında baş verib. Misir məhkəməsi tərəfindən prokurora qarşı sui-qəsddə ittiham olunan "Müsəlman Qardaşlar" (İxvan əl-Muslimun) Hərəkatının üzvü Əbdülhafiz Əhməd Hüseyn İstanbul Atatürk Hava Limanında qandallanaraq Qahirəyə göndərilib.

Bu hadisə islamçı camiədə ciddi etiraz doğurub. Çünki Türkiyənin hazırkı hakimiyyəti 2012-13-cü illərdə Misirdə hakimiyyətdə olmuş "Müsəlman Qardaşlar" Hərəkatını dəstəkləyir. Hətta buna görə hazırda Ankara və Qahirə arasında diplomatik əlaqələr minimum səviyyədədir, siyasi əlaqələr isə mövcud deyil, hətta bəzi platformalarda düşmənçilik var. Ərdoğan şəxsən özü 2013-cü ildə baş vermiş hərbi çevrilişi, o cümlədən hazırkı prezident Əbdülfəttah Sisi iqtidarını sərt şəkildə tənqid edib. Üstəlik, Misirdən qaçan çoxlu sayda "ixvan"çı Türkiyə-



də sığınacaq tapıb. Lakin indi birdən-birə bu addımın atılması islamçı dairələrdə sərt tənqidlərə səbəb olub.

Eyni zamanda, bunun əksinə, bir çoxları hesab edir ki, bu, Türkiyə-Misir əlaqələrinin bərpa olunması üçün atılmış addım ola bilər. Buna görə də təqdir olunmalıdır. Həqiqətən də əgər bu qərar siyasi dairələr tərəfindən verilibsə, güman ki, Qahirə ilə münasibətləri yumşaltmağa xidmət edəcək.

Daha bir maraqlı detal isə Türkiyə hakimiyyətinin baş verən hadisəyə reaksiyasıdır. İstanbul Valiliyi bəyan edib ki, hadisə ilə bağlı Atatürk Hava Limanı polis şöbəsində pasport-nəzarət ofisində çalışan 8 nəfər işdən azad edilib. Valilik bildirib ki, hadisə ilə bağlı dövlət komissiyası yaradılıb və araşdırma davam etdiyi müddətdə 8 polis işdən uzaqlaşdırılıb.

AKP-dən olan sabiq deputat Yasin Aktay "Yeni Şafak" qəzetində yazdığı köşə yazısında Əbdülhafizin İstanbulda qarşılaşdığı hadisənin təfərrüatlarını qələmə alıb. Təbii ki, Aktay Türkiyədə islamçı kəsimin təmsilçisidir, xüsusən də Misir "ixvan"ı ilə yaxın əlaqələrə sahibdir. Aktay yazır ki, miqrasiya idarəsindəki mənbələrdən dəqiqləşdirdiyi məlumata əsasən, Əbdülhafiz yanvarın 16-da Moqadişudan Qahirəyə uçan təyyarə ilə İstanbula gəlib, ancaq burada təyyarəni dəyişmək əvəzinə 07.19-da Türkiyəyə daxil olmaq üçün pasport-nəzarət məntəqəsinə yaxınlaşır. Ancaq lazımi sənədləri qaydasında olmayıb, üstəlik təqdim etdiyi e-vizada yaşı dəqiq göstərilmədiyi üçün Türkiyəyə daxil olmasına icazə verilməyib. Bundan sonra isə prosedura uyğun olaraq ölkəyə gəldiyi Qahirə təyyarəsinə mindirilib. Üstəlik, sənədləri qaydasında olmayan misirli bu zaman beynəlxalq mühafizə tələb etməyib. Bu səbəbdən də onun ölkəyə daxil olmasına icazə verilməyib. Çünki qanunlara əsasən, beynəlxalq sığınacaq istəyən şəxsi göndərə bilməzlər.

Lakin indi sual yaranır ki, haqqında Misirdə ölüm hökmü qərarı çıxarılmış bir adam nə üçün etiraz etməyib? İstanbulda çox rahat şəkildə Qahirə təyyarəsinə mindirilməsinə razı olub? Aktaya görə, Əbdülhafiz bu xüsusi vəziyyət barədə hava limanı polislərinə məlumat verməsə, polislərin məlumatı olmaya bilərdi. Ancaq istənilən halda Qahirəyə gedən təyyarədən qaçıb Türkiyəyə daxil olmaq istəyən adamın hərəkəti polisdə şübhə yaratmalı idi. Çünki iki ölkə arasında münasibətləri və Misirdəki siyasi vəziyyəti ən azı Türkiyədə hər kəs bilir. Yəni istənilən halda hava limanı polisinin misirlini tez-tələsik qandallayıb ölkəsinə göndərməsinə gərək yox idi. Y.Aktayın fikrincə, indi rəsmi qurumlar bütün bu sirli məqamları araşdırır.

Ancaq aydın məsələdir ki, "Müsəlman Qardaşlar"a yaxın bir yazar və siyasətçi olan Aktayın həm də təmsil etdiyi partiyanı müdafiə etməsi, ittihamları ondan uzaqlaşdırması təbiidir. Çünki AKP təkcə ölkə daxilində deyil, bütövlükdə müsəlman dünyasında siyasi islam hərəkatı ilə yaxın əlaqələri olan bir qurumdur. Bu hadisə isə Türkiyə hakimiyyətinin ən azından son 17 ildə apardığı kursa ziddir. Digər tərəfdən, bu hadisənin insanpərvərlik tərəfi var. Türkiyə hakimiyyəti hazırkı Misir hakimiyyətini qiyamçı, hakimiyyəti zorla qəsb etmiş hakimiyyət hesab edir. Belə bir hökumətin edama məhkum etdiyi şəxsin ən azından sığınacaq üçün qorunma tələb etmək və edamdan qorunmaq haqqı tanına bilərdi. Ya da ən azından Misir məhkəməsinə olan şübhələr səbəbindən.

Hazırkı situasiyada Əbdülhafizlə bağlı məsələ iki cür yozula bilər. Birincisi, bu qərarı Türkiyə hakimiyyəti verib və məqsəd Qahirə ilə münasibətlərin yumşalmasıdır. Ya da ən azı bu istiqamətdə jestdir. Sadəcə, ictimai rəydə təpkini nəzərə alaraq məsələ hava limanı səviyyəsində ört-basdır edilir. Əgər belədirsə, bu prosesin, necə deyərlər, arxası da gələcək və nəhayət, 6 ildən sonra iki ölkənin münasibətləri qaydaya salınacaq. Yeri gəlmişkən, Türkiyədə bir sıra siyasətçilər də o fikirdədir ki, Ankara reallıqla barışıb Misirlə əlaqələrini bərpa etməlidir.

İkinci mümkün versiya isə bu hadisənin provokasiya olmasıdır. Yəni Türkiyədə hüquq-mühafizə sistemində hökumətin nüfuzuna zərbə vurmaq istəyən qrup belə bir hərəkətə yol verib, bununla da Ərdoğanın siyasi kursuna qarşı çıxıblar. Mümkündür ki, bunu edən siyasi və ya bürokratik qrup öz təşəbbüsləri ilə Misir hakimiyyətinə jest etmək istəyib.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

**Fevralın 14-də müxtəlif ölkələrdə "Sevgililər günü" (Müqəddəs Valentin Günü) qeyd olunur. Növbəti həftəni bu nöqteyi-nəzərdən şərti olaraq "sevgi həftəsi" də adlandırmaq olar.**

# Sevgi adı ilə soyğun həftəsi...

## "Sevgililər günü"ndən qazanan kimlərdir; gül mağazalarında artıq qiymətlər bahalaşıb










Azərbaycanda da bu günü qeyd edənlər var. Lakin "Sevgililər günü" ilə bağlı münasibətlər birmənalı deyil. Bildirilir ki, bu "bayram" yalnız müxtəlif biznes kooperasiyalarının, işbazların işinə yarayır. Bu günün qeyd edilməsi də onların təbliğat maşınlarının işinin nəticəsidir.

Günün tarixi ilə bağlı ilk olaraq onu qeyd edək ki, 14 fevralın "Sevgililər günü" kimi qeyd edilməsi təxminən 1500 il əvvələ gedib çıxır. Bunun əsası xristianlığa deyil, əski Roma ənənələrinə dayanır. Qədim Romada 14 fevral tarixi bütün Roma xalqı üçün xüsusi əhəmiyyət kəsb edirdi. İnanclara görə, həmin gün Roma "Tanrı" və "Tanrıçaları"nın kraliçası olan Junoya duyulan sayğıdan dolayı bayram elan olunurdu. Səhəri gün isə Lupercalia bayramı başlayırdı. Bu bayram xalqın gənc kütləsi üçün böyük önəm daşıyırdı. Bunun səbəbi isə həyatları qəti qanun-qaydalarla müəyyənləşdirilmiş və bunun da təbii nəticəsi olaraq gəzib-əylənmə şansı çox məhdud olan gənclərin bu bayramda bir-biri ilə iyrənc şəkildə əylənmələri idi.

Tarixi qaynaqlardakı məlumatlara görə, Valentin imperator II Kladiusun əxlaqsızlığa qarşı dözümsüz münasibətinin qurbanı olub. Əxlaqsızlıq gününün "Valentin günü" adı altında açıq-aşkar qeyd edilməsi isə onun ölümündən təxminən 226 il sonraya təsadüf edir. Yeni Papa Gelasius tərəfindən 1496-cı ildə Lupercalia bayramının adı Valentinin şərəfinə dəyişdirilir. Onlar bu bayramın sadəcə adını dəyişərək gənclərin xristianlığa bağlı adı olan bir şənlikdə "Müqəddəs Valentin günü"ndə əylənmələrini təmin edirlər.

Bütün bu kimi faktların təbliğatının nəticəsi olaraq bir çox ölkələrdə bu gün artıq qeyd edilmir. Məsələn, Pakistan ərazisində "Sevgililər günü"nü qadağan edib. Sevgililər gününün qadağan olunduğu ölkələrdən biri də Malayziyadır. Bu ölkənin Dövlət Din İşləri "Sevgililər günü"nü qeyd etmənin haram olduğunu elan edib. Özbəkistan da bu günü qeyd etmir. Ölkədə 14 fevral tarixində keçiriləcək bütün əyləncə və konsert proqramları ləğv edilib. İranda isə bu günlə bağlı bütün hədiyyəlik əşyaların satışı və reklamları qadağan edilib.

Səudiyyə Ərəbistanında isə 2004-cü ildə verilən fitvada "Sevgililər günü"nü Allaha və qiyamət gününə iman gətirən müsəlmanların qeyd etməmələri söylənib. Fitvada Allahın qəzəbindən qorxanlar üçün bunun bir vəzifə olduğu vurğulanıb. Türkmənistanda da bu günün qeyd olunması qadağandır.

Amma yuxarıda da qeyd etdiyimiz kimi, bu günü Azərbaycanda qeyd edənlər az deyil. Eyni zamanda Azərbaycanda qeyri-rəsmi olaraq 1990-cı il 20 Yanvar şəhidlərimiz olan İlham və Fərizənin toy gününü də (30 iyun) sevgililər günü kimi qeyd edənlər var.

"Yeni Müsavat"ın əməkdaşı müşahidə edib ki, artıq paytaxtda iri marketlərdə müxtəlif ölçülərdə olan kuklaların, hədiyyələrin satışına başlanılıb. Həmçinin gül mağazalarında da müxtəlif ölçülü oyuncaq ayılar, ürək formaları satışa çıxarılıb. Bu ayıların qiyməti 30 manatdan 400 manata qədər dəyişir. 400 manatlıq ayının uzunluğu 2 metrdir. Satıcılar bildirdilər ki, 14 fevralda gənclər daha çox oyuncaq ayılara və gül buketlərinə üstünlük verirlər. Gül buketlərinə gəlincə isə onların da qiymətləri ölçüsündən və istifadə olunan güllərin sayına görə müxtəlifdir. Güllər adətən 40-100 manat arasında dəyişən qiymətlə satılır. Təbii ki, daha baha qiymətə olanları da var ki, bunun üçün öncədən sifariş etmək lazımdır.

Öyrəndik ki, bu gündən istifadə edən işbazlar tək-tək satılan güllərin qiymətində indidən 1 manat artım ediblər. Məsələn, əvvəllər 4 manata satılan qızılgül hazırda 5 manata satılır. Mümkündür ki, növbəti həftədə güllərin qiymətində bir qədər də bahalaşma olsun. Satıcılar isə iddia etdilər ki, güllərin qiymətinin qalmasına səbəb daşınma və digər bu kimi xərclərdir. Onlar qeyd etdilər ki, gülləri gətirdikləri ölkədə də bu kimi bayram ərəfəsində müəyyən qiymət artımı olur. Dedilər ki, baha aldıqları üçün baha da satırlar...

Onu da qeyd edək ki, Azərbaycanda "Sevgililər günü"ndə daha çox oyuncaq ayı, gül almağa üstünlük verilsə də, bəzi ölkələrdə bu gün fərqli qeyd edilir. Məsələn, Çində bu gün əyləncə gecələrində qeyd edilir, romantik şam yeməyi sifariş edilir və sairə. Çinin özünün sevgililər günü var ki, bu, avqust ayına düşür.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Nobel prospekti bomba sığınacağının üstündədir-iddia

## Ekspert: "Görünür, zavodu ləğv ediblər, ancaq həmin sığınacaqlarda müvafiq işləri aparmayıblar"





**Nobel prospekti növbəti dəfə çökmə təhlükəsi ilə üz-üzədir. Müvafiq qurumların açıqlamalarından belə aydın olur ki, bu dəfə vəziyyət daha ciddidir. Belə ki, "Azərsu" ASC məlumat yayaraq bildirib ki, Sahil kollektorunun Nobel prospektində yerləşən 11 saylı texnoloji şaxtasının və kollektorun təhlükəsizliyini təmin etmək, eləcə də prospektdə avtomobil yolunda çökmənin qarşısını almaq üçün ərazidə əlavə işlərin görülməsinə qərar verilib. Bildirilib ki, yolun çökməsinin 24 metr dərinlikdən keçən Sahil kollektoruna təsirini qiymətləndirərkən 11 saylı şaxtaya qrunt sularının dolması aşkarlanıb.**

Şaxtaya dolan qrunt sularının qarşısını almaq məqsədilə "Azərsu" təxirəsalınmaz tədbirlər görüb, bu sahədə ixtisaslaşmış "Penetron-Azərbaycan" şirkəti şaxtanı daxildən xüsusi materiallarla izolyasiyası edərək buraya daxil olan qrunt sularının qarşısını tam alıb. Bildirilib ki, qrunt-bərkitmə işləri zamanı dərinliyi 20-25 m olan quyular qazılaraq yüksək təzyiqlə sement məhlulu torpağın alt qatına inyeksiya ediləcəkdir. İnyeksiya işləri 11 saylı şaxtanın hər iki istiqamətində aparılacaq.

İlkin qiymətləndirmələrə əsasən, qrunt-bərkitmə işləri 20-25 gün ərzində davam edəcək. Bu müddətdə hərəkət iştirakçılarının və tikinti təhlükəsizliyinin təmin olunması məqsədilə Nobel prospektindən şəhər istiqamətinə nəqliyyatın hərəkətinin tam məhdudlaşdırılması planlaşdırılır. Prospektdə hərəkət məhdudlaşdırılması zamanı paralel olaraq Sahil kollektorunun yaxınlığında yerləşən texnoloji şaxtalarında da kompleks tədqiqat işləri aparılacaq.

Vəziyyəti öyrənmək üçün Nobel prospektində olduq. Müşahidə etdik ki, ötən ilin dekabr ayında çökən hissə tam bərpa olunub. Lakin hazırda ərazidə hər hansı təmir aparılmır. Eyni zamanda yol boyunca hərəkət də məhdudlaşdırılmayıb. Nobel prospektinin asfalt örtüyündə çatlar gözlə görünür.

**Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Anar Nəcəfli "Yeni Müsavat"a bildirib ki, yolda təmir işlərini onlar deyil, "Azərsu" aparacaq:**

"Onlar kollektor sistemində işlər görəcəklər. Bu barədə də açıqlama veriblər. Aparılan təmir işlərinin bizim qurumla əlaqəsi yoxdur. Ona görə də yolun nə zaman bağlanacağını deyə bilmərik".

**"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı isə "Yeni Müsavat"a söylədi ki, yolda hələ ki işlərə başlanılmayıb:** "Ona görə də hərəkətdə hansısa məhdudiyyət yoxdur. Yol bağlanan zaman bununla bağlı ictimaiyyətə məlumat verəcəyik".

Yol bağlanan Babək prospekti ilə 10-cu zavod dairəsi istiqamətinə və yaxud həmin ərazi üzrə Nəcəfqulu Rəfiyev küçəsindən keçməklə Afiyəddin Cəlilov küçəsi istiqamətində alternativ hərəkət müəyyənləşdirilə bilər. Bu baxımdan sürücülər çox da çətinlik çəkməyəcəklər.

Məsələ burasındadır ki, bu cür çökmə hadisəsi Nobel prospektində birinci dəfə baş vermir. Bəs prospekt nə üçün çökür?

2014-cü ildə "Azərneftyağ" neft emalı zavodunun qarşısında, şəhər istiqamətindəki yolda baş vermiş çöküntünün dərinliyi təxmini 20-30 sm, diametri isə 1,5-2 metr olardı. Durumla bağlı 4 zolaqlı yolun 2 zolağı araşdırma işlərinə görə bağlanmışdı. Yolun təxminən 150-200 metrlik hissəsində tədqiqat işləri aparılırdı. Lakin o zaman da konkret olaraq çökmənin hansı səbəbdən baş verdiyi, yerin altı ilə axan suyun mənbəyinin hara olması açıqlanmadı.

İndi isə problemi yolun 20-24 metr dərinliyində olan kollektorla əlaqələndirirlər. Lakin bu sahə üzrə ekspertlər bildirirlər ki, qeyd edilən dərinlikdə kollektorun olması mümkün deyil. Ekspertlər prosesi vaxtilə Nobel prospektində fəaliyyətdə olan zavodlarla əlaqələndirirlər.

Onu da deyək ki, Nobel prospekti (Fəhlə prospekti) Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən ən uzun, iki istiqamətli 6 solaqlı küçədir. Küçə öz başlanğıcını Neftçilər prospekti ilə Yusif Səfərov küçəsinin kəsişdiyi nöqtədən götürür və Ramiz Quliyev küçəsi səviyyəsində Zığ şosesinə keçir. Küçənin uzunluğu 6,5 km-dir. Həmin prospektin ərazisində sovet dövründə çoxsaylı zavodlar fəaliyyət göstərib. Sonradan isə ərazidə abadlıq işləri aparılıb, zavodlar köçürülüb, prospekt salınıb.

İddialar var ki, prospektin altı sovet dönəmində hava hücumundan qorunmaq üçün sığınacaq olub. Çökmənin səbəbi də bununla bağlıdır.

**"Yeni Müsavat"a danışan ekspert Əzim Məsimov bu faktın mümkün olduğunu söylədi. O bildirdi ki, sovet dönəmində mövcud olan zavodların hamısının həyətində yeraltı sığınacaqlar olub:** "Mümkündür ki, həmin ərazidə də zavodun sığınacağı varmış. Ümumiyyətlə, sovet dövründə yaşayış yerlərinin həyətində, zavodların ərazisində hava hücumundan qorunmaq üçün sığınacaqlar mövcud olub. Mənim yaşadığım binanın həyətində də böyük sığınacaq var. Görünür, zavodu ləğv ediblər, ancaq həmin sığınacaqlarda müvafiq işlər aparılmayıb. İndi də sığınacaqlar köhnəlib və çökmə baş verir. İlk olaraq tapmaq lazımdır ki, bu su haradan gəlir. Bunun istiqaməti ilə gedib, suyun mənbəyini aşkarlamalıdırlar. 24 metr dərinlikdə deyirlər ki, su keçir. Bu dərinlikdə kollektor olmur. Ola bilər ki, su hansısa boru ilə Keşlə tərəfdən gəlir. Zavodları ləğv edib, borunu da kəsə bilərlər. Su da həmin vaxtı olmadığı üçün zərər verməz. Mümkündür ki, həmin borulardan birinin ağzı açıq qalıb və indi su axıntısı var. Ona görə də məsələ ciddi şəkildə araşdırılmalıdır".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 29 (7199) 7 fevral 2019

# 21-ci əsrə əsa ilə gələn qan davası

O, Avropaya da, Asiyaya da ayaq açıb; **Mahmud Hacıyev:** "Bunlar gendən, psixoloji və fizioloji durumdan əmələ gələn hallardır..."

**Son illər ölkəmiz də daxil olmaqla, bir çox Şərq ölkələrində qan davası artıb. "Yeni Müsavat" bunun səbəbləri və tarixi kökləri ilə bağlı bir arayış hazırlayıb.**



Ümumiyyətlə, qohumluq əlaqələrinin geniş yayıldığı cəmiyyətlərdə intiqam alma duyğusundan qaynaqlanan, silsilə formada qarşılıqlı cinayətlərlə davam edən ailə və qəbilələrarası mübahisələrə "qan davası" deyilir. Belə hallar haqq axtarma müddətinin tapılmadığı, anlaşılmazlıqların tərəfləri razı salacaq formada həll olunmadığı, haqq və ədalət duyğularının təmin olunmadığı hüquq sistemlərində, fərdin haqq və ədaləti təkbaşına gerçəkləşdirmə cəhdinin bir nəticəsi olaraq ortaya çıxır.

Bir insan cinayətə yol verən birinin uyğun formada cəzalandırılmamasına görə intiqamını almaq, qürurunu xilas etmək, haqq və ədaləti bərpa etmək cəhdini həyata keçirmək istəyir. Qan davasının başlamasından sonra davaya tərəf olan ailə üzvləri güclü bir qruplaşma içinə girirlər. İşlənən cinayətdən ailə üzvlərinin hər biri ayrı-ayrılıqda cavabdeh sayılır. Bu işlərdə əsasən ailələrin kişi üzvləri hədəf alınır, qadın və uşaqlara yönəlmiş cinayətlərə az rast gəlinir. Amma qan davasının ailə sərhədlərini aşaraq nəsillərarası bir düşmənçiliyə çevrildiyi çevrələrdə qadın və uşaqları da içinə alan toplu cinayətlərə yol verilir.

Ümumən qan davası İslam öncəsi ərəb cəmiyyətlərində ən geniş yayılmış adətlərdən biri olub. Haqq və ədaləti gerçəkləşdirəcək bir hüquq və toplum sistemindən yoxsul olan cahil cəmiyyətdə qan davaları qəbilələrarası düşmənçilik və müharibələrin başlıca səbəbləri arasında yer alırdı. İslam cahillik dönəminə aid olan bir çox adətlə birlikdə qan davasını ortadan qaldırıb. Gətirdiyi insan və cəmiyyət anlayışı ilə ədalət sistemini bərpa edib, qan davasını ortaya çıxaran səbəbləri yox edib. İslama görə insan canı, malı, namusu, heysiyyəti, bütün haqq və azadlıqları ilə toxunulmaz bir varlıqdır. Heç kimsə hüquq xaricində bir səbəblə insanın maddi və mənəvi varlığına təcavüz edə bilməz, haqq və azadlıqlarını müqayisə edə bilməz. Möminlər bu cür davranışların içinə girə bilməzlər. Çünki möminlər inanclarına görə qardaşdırlar, bir-birinə qarşı İslamın əsas götürdüyü qaydalar xaricində davrana bilməzlər.

Qan davasını şərtləndirən məqamlar aşağıdakılardır:

- *Cinayət və cəza arasındakı bərabərsizlik və cəzanın ədalət duyğusunu təmin etməkdən uzaq olması.*
- *Bir insanı haqsız yerə və qəsdlə öldürən bir insanın bir neçə il sonra ortalıqda dolaşması, intiqam duyğularını hərəkətə keçirir.*
- *Üstün nüfuzun olmaması.*
- *Cinayətin şəxsiliyi prinsipinin keçərli olmaması.*
- *Şəxsi intiqam alma ənənəsinin davam etməsi. Cinayətkarı üstün güc, dövlət yox, insanlar cəzalandırmaqdadır.*
- *Güclü siyasi mərkəzi nüfuzunun olmaması. Şəxsi bir problemlər olduğu zaman ədliyyə sisteminə yox, qəbilə rəislərinə, nəsil böyüklərinə, ya da çevrədə güclü olan şəxsə müraciət edilir.*
- *Yoxsulluq, hərəkətsizlik və xarici dünya ilə münasibətlərin çox zəif olması.*
- *Təhsil səviyyəsinin aşağı olması.*
- *Hər sahədə cəhalət.*
- *İntiqam. Kin və intiqam duyğusunun mərdliklə bərabər mənada işlənməsi və cəmiyyət tərəfindən müsbət reaksiyalara səbəb olması.*
- *İrqçilik (mikro anlamda). Ailə və nəsil irqçiliyi.*
- *Başlıq pulu və qız qaçırmaların ortaya çıxardığı problemlər.*

İndiki mərhələdə isə daha çox Şərq ölkələrinin "məhsul"u kimi bilinən qan davası böyük köçlə Qərb bölgələrinə, eləcə də Avropa ölkələrinə daşınıb. Cəmiyyət təzyiqinə görə qan davasını davam etdirməyə məcbur qalan ailə üzvləri qan davasından qaçmaq üçün bölgələrdən başqa şəhərlərə köç edirlər. Qan davalı ailələrə mənsub kişilər cinayətə yol verdiyi üçün türməyə girdikləri halda, yaxınları eyni ailəyə mənsub olduqları üçün ölüm qorxusu yaşayırlar. Qan davaları ilə qarşılaşmamaq və ya qurulacaq tələlərə düşməmək üçün evlərində həbs şəraiti yaşayan ailə üzvləri böyük sıxıntı yaşayırlar.

Amma qan davasının ancaq müsəlman Şərq ölkələrinə məxsus "ənənə" olduğunu demək yanlışdır. Bugünlərdə əhalisinin mütləq əksəriyyəti katolik olan Filippində 10 illik bir qan davasına görə 3 ailə arasında silahlı çatışma çıxıb və 8 nəfər ölüb. Hadisəyə səbəb 2001-ci ildə bir maşın satışı sonrası ödənilməyən borc səbəbi İlə aralarında qan davası olan 3 ailə arasında çıxan dava, silahlı çatışmaya çevrilib. Eyni ailələr arasında ötən iyun ayında da çatışma çıxmış və 4 nəfər həyatını itirmişdi.

Cənubi Filippində pul, ərazi və siyasət kimi səbəblərə görə qan davaları tez-tez yaşanır. Bölgədə son 70 ildə ən azı 3 min nəferin bu cür çatışmalarda öldüyü qeyd edilir.

Amerika da qan davalarının sayına görə siyahıda özünəməxsus yer tutur. Ölkənin Kentucky və Qərbi Virciniya ştatlarında yaşayan Hatfield və McCoy ailələri 100 ildir davam edən qan davasının əsas tərəfləri idi. Bu ailələr 19-cu əsrin sonlarında bir donuza görə çıxan davada 12 nəfərin ölümünə səbəb olublar. O gündən bu yana isə ailələr bir-birinə düşmən kəsilib. Amma Hatfield ailəsi üzvlərindən, Vircinia ştatında yaşayan Reo Hatfield, bir əsrdən artıq davam edən qan davasının sona çatdırılmasının vacibliyinə qərar verib və Reo Hatfieldin hazırladığı sülh anlaşmasına qarşı tərəf müsbət cavab verdiyi üçün iki ailə də sülh imzalayıb. Bu proses geniş kütlənin qarşısında baş verib. Beləcə, Amerikanın ən məşhur düşmən ailələri barışıblar.

**Sabiq polis rəisi Mahmud Hacıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ümumiyyətlə, qan davalarını qanundakı boşluqlarla əlaqələndirmək doğru deyil. Onun sözlərinə görə, bu ənənə daha çox müsəlman dünyasında özünü göstərir:** "Amma İtaliyada da bu, belədir. Amerikada da qan davasının nümunələri var. Orda da bunu edənlər İtaliyadan gələnlər və müsəlmanlardır. Bunlar gendən, psixoloji, fizioloji durumdan əmələ gələn hallardır".

**Müsahibimiz dedi ki, müəyyən adamlar təhsil, dünyagörüşü baxımdan xeyli inkişaf etdiyi üçün bu sayaq ənənələri rədd edir. Amma nəslində belə hadisələrin yaşandığından xəbər tutub, onu davam etdirmək istəyənlər də olur:** "Bu, genetik olaraq keçir. İnsan eşidir ki, ulu babasının nəslində kimsə kimisə öldürüb. Bəzi insanlar bunu qeyri-qanuni qəbul edir, amma bu kimi hallar insanların xarakterik xüsusiyyətindən və genindən əmələ gəlir. Təbii ki, bu məsələdə acizlik göstərən qanunlar da var. Bu fakt qədimdə olub, gələcəkdə də olacaq. Zaman keçdikcə, müəyyən zaman kəsiyində bu kimi neqativlər azala bilər. Amma tamamən ləğv olunmasına inanmıram".

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**



## Yüzlərlə avtomobilin şüşəsini sındıraraq oğurluq edənlər ələ keçdi

**Paytaxtın Nizami rayonu Ə.Hacıyev küçəsində yerləşən paltar mağazalarından birindən oğurluq edilib. Naməlum şəxslər mağazanın giriş qapısını sındıraraq içəridən 450 manat pul götürərək hadisə yerindən qaçıblar.**

Bu barədə musavat.com-a DİN-in mətbuat xidmətindən məlumat verilib.

Hadisə ilə bağlı 25-ci polis şöbəsinə məlumat daxil olan kimi cinayəti törədən şəxslərin axtarışlarına başlanılıb. Həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbiri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən paytaxt sakinləri Ceyhun Abbasov və Elxan İsayev saxlanılıblar.

Onların ətraflarında 25-ci polis şöbəsində araşdırma aparılan zaman onların başqa cinayətlərinin də üstü açılıb. Belə ki, C.Abbasov və E.İsayevin paytaxt ərazisində və respublikanın ayrı-ayrı bölgələrində yüzlərlə avtomobilin şüşələrini sındıraraq nəqliyyat vasitələrinin salonlarından oğurluqlar etdikləri məlum olub. Onlar ifadələrində törətdikləri cinayətləri etiraf ediblər.

Faktla bağlı 25-ci polis şöbəsində saxlanılan şəxslər barəsində toplanan materiallar araşdırılması üçün Nizami RPİ-nin İstintaq şöbəsinə göndərilib.

Bu şəxslərin digər cinayətlərdə iştirak etdikləri də istisna olunmur. Onların əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili işlər Nazirliyinin "102" zəng mərkəzinə, Nizami RPİ və ya 25-ci PŞ-yə müraciət edə bilərlər.

**❑ Musavat.com**



Anar Heydərov Əfsanə Xankişiyeva

## Bakıda bir gündə iki mənzili soyan şəxslər saxlanılıb

**Fevralın 3-də Səbayel rayonu Z.Əliyeva küçəsi 29 ünvanında yerləşən iki mənzildən oğurluq edilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, naməlum şəxs və ya şəxslər mənzillərə daxil olaraq ümumi dəyəri 30000 manat olan qızıl-zinət əşyaları, 2 ədəd televizor və noutbuk oğurlayıblar.

Zərərçəkən ev sahiblərinin şikayəti əsasında Səbayel Rayon Polis İdarəsi və 39-cu Polis Bölməsi əməkdaşlarının qısa zamanda həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən hadisəni törətməkdə şübhəli bilinən paytaxt sakinləri Əfsanə Xankişiyeva və Anar Heydərov saxlanılıblar.

Araşdırma zamanı müəyyən edilib ki, Ə.Xankişiyeva və A.Heybətov oğurladıqları televizorlardan birini və qızıl-zinət əşyalarından müəyyən hissəsini satıblar. Həmin şəxslər tutulan zaman onlardan oğurluq yolla əldə etdikləri qızıl-zinət əşyaları, həmçinin hadisə zamanı istifadə etdikləri alcəklər aşkar ediləcək maddi sübut kimi götürülüb. Ə.Xankişiyeva və A.Heydərov istintaqa verdikləri ifadələrində qeyd edilən hadisəni törətdiklərini etiraf ediblər.

Faktla bağlı Səbayel Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 177.2.1 ( oğurluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) 177.2.2 (təkrar törədildikdə) və 177.2.3 (yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədildikdə) maddələri ilə cinayət işi başlanılıb.

Əməliyyat-istintaq tədbirləri davam etdirilir.

**❑ Musavat.com**

# Boşanma fəlakətdir, yoxsa mədəniyyət?

## Aqiyə Naxçıvanlı: "İnformasiya texnologiyaları, sosial şəbəkələr boşanmalara çox böyük təsir göstərən amildir"

**Boşanmalarla bağlı statistika kritik həddə çatıb. Azərbaycanda biruşaqlı ailələrdə boşanma halları təxminən 71 faiz, iki və daha çox uşağı olan ailələrdə isə 38 faiz artıb.**

2018-ci ilin yalnız yanvar-oktyabr aylarında qeydə alınmış boşanma hallarının sayı 12 396 təşkil edib.

Ümumilikdə boşananlar arasında uşaqsız ailələr çoxluq təşkil edir. Lakin göstəricilərdən aydın olur ki, ötən illərdə uşağı olmayan ailələrdə boşanma halları nisbətən azalsa da, uşaqlı ailələr arasında boşanmaların sayı çoxalıb.

Uşağı olmayan ailələr arasında ən çox boşanma halı 1990-cı ildə, uşaqlı ailələr arasında ən yüksək boşanma göstəricisi isə 2017-ci ildə qeydə alınıb. 2017-ci ildə boşanma nəticəsində valideynlərin biri ilə qalmış uşaqların sayı 13 110 olub ki, bu da hər 100 boşanmaya 162 uşağın düşməsi deməkdir. 2018-ci ilin yekun statistikası isə hələ ki açıqlanmayıb.

Ümumilikdə götürdükdə, boşanmalar daha çox şəhər yerlərinin payına düşsə də, kənd yerlərində əhalinin hər 1000 nəfərinə düşən boşanmaların sayı artıb, şəhər yerlərində isə əksinə, azalıb.

Boşanmaların səbəbləri haqqında bir çox fikirlər səslənsə də, onların başında erkən nikahlar, təhsilsizlik və kənar müdaxilələr gəlir.

Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi Reyhanə Kərimova isə "Trend"ə Azərbaycanda ailələrin ən çox xarakter uyğunsuzluğu, sonsuzluq və kənar müdaxilələr səbəbindən dağıldığını söyləyib.

**Mövzu ilə bağlı Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı "Yeni Müsavat"a danışarkən bildirdi ki, problemin qarşısını hansısa qanunla almaq mümkün deyil:** "Boşanmaların sayı artıb, artıq bir gün ərzində neçə boşanma qeydə alınır, nəinki ayda və ya ildə. Statistika artır, biz qanunverici orqanda təmsil olunuruq və bu problemin qarşısını hansısa qanunla almaq mümkün deyil. Hər ailə kiçik bir dövlətdir və onun öz qanunları var. Səbəbləri araşdırdıqda isə görürük ki, valideyn məsuliyyətsizliyi böyük rol oynayır. Çox zaman valideyn ilk gələn elçiyə qızını verir, düşünmür ki, o, kimdir, nəçidir. Sadəcə, yükünün azalmasını istəyir. Nikah bağlanması üçün tərəflərə verilən vaxt da azdır, gənclər bir-birini tanıya bilmir. Bunlar hamısı önəmli səbəblərdir".

**Deputat hesab edir ki, gənclər arasında dözümsüzlük çoxdur, onlar heç nəyə dözmək istəmirlər:** "Bizim milli adət-ənənəmiz, yazılmayan qanunlarımız var. İnsanlar artıq ictimai qınaqdan da çəkinmirlər. Bizim adətlərimizdə həya, abır, utanc var idi, onlar hamısı yoxa çıxır. İnformasiya texnologiyaları, sosial şəbəkələr boşanmalara çox böyük təsir göstərən amildir. Mənim qəbuluma gələnlər də olur ki, bir çoxu boşanıb, aliment ala bilmir. Onlarla söhbətdə bəlli olur ki, əksəri sosial şəbəkələrdə tanış olublar. Tanışlıqdan qısa müddət sonra ailə qururlar. Gənclərin bəziləri sanki oyun oynayırlar. Gənclər Forumunda cənab prezident gənclər qarşısında məqsəd qoydu, onlardan təhsilli olmalarını xahiş etdi. Belə problemlərin əksəriyyəti təhsildən yayınanların, erkən nikahların qurbanı olanların qurduğu ailələrdir. Boşanmaların statistikasını təhlil etsək görərik ki, bu ailələrin çoxunda hər iki tərəf savadsızdır. Problemlərini həll edə bilmirlər, davaya, zorakılığa əl atırlar və nəticədə boşanırlar. Boşandıqdan sonra da heç nə yaxşıya doğru getmir, daha böyük faciələr baş verir".



**A.Naxçıvanlı onu da vurğuladı ki, ailələrin dağılma səbəbləri arasında içki və narkotik aludəçiliyi hallarına da çox rast gəlinir:** "Mən anlayıram ki, maarifləndirmə işləri güclənməlidir. Ancaq maarifləndirmə işləri respublikamızın hər bir bölgəsində onsuz da aparılır. Ailələr bu məsələdə diqqətli olmalıdırlar. Dünyaya gətirdikləri qız uşaqlarını böyüdüb oda atmamalıdırlar. Valideyn məsuliyyəti də burada nəzərə alınmalıdır. Nikaha daxil olarkən gənclərə 1 aylıq vaxt verilir, bu müddət də bir qədər uzadılmalıdır. Qoy gənclər bir-birini tanısınlar, xasiyyətinə bələd olsunlar. Gənclər elə tez evlənib, elə tez boşanırlar ki, heç bir mərhələdə onlara yetərincə vaxt verilmir. İnsanlar boşanma üçün müraciət edərkən, onlara yardım edəcək bir qurum olmalıdır, ağsaqqallardan, ağbirçəklərdən ibarət təşkilat olsun və gənclərlə söhbət aparsınlar. Elə ailələr var ki, tamamilə boş şeylərin üstündə ayrılırlar. Sonra da geriyə yolları qalmır və barışa bilmirlər. Onlara məsləhət verən bir el ağsaqqalı olsa, kübar ailələrin nümayəndələri olsa, el adətlərini bilən bir böyük olsa bəzi ailələri xilas etmək olar. Biz birləşib bu problemin həlli üçün çalışmalıyıq".

**Deputat hesab edir ki, qanunvericilikdə hər hansı dəyişiklik etməklə problemin həllini tapacağını gözləmək lazım deyil:** "Bu gün boşanan ailələr heç aliment ala bilmir. Ata dünyaya gələn övladına kömək etmək istəmir. Uşaq ailədə ən müqəddəs dəyərdir. Ancaq bu insanlar atalıq məsuliyyətini başa düşmürlər. Analar məsuliyyəti dərk etsələr, 2-3 uşağı atıb gedərlərmi? Məsuliyyət hissi azdır bəzi insanlarda. İctimai qınaq daha təsirli olmalıdır ki, gənclər bu işdən çəkinsinlər. Valideynlərə demək lazımdır ki, qapısına ilk gələn insana qızlarını verməsinlər, dərhal etibar etməsinlər. Nikah müqaviləsinin bağlanılmasına getmək lazımdır. Bəzən insanlar qınayır ki, ailə qurduğun adama etibar etmirsənmi? Etibar edəndə sonradan belə hadisələr başına gəlir. Mən nikah müqaviləsinin vacib olduğunu düşünürəm. Məhkəmələrdə boşanma zamanı gənclərə yol göstərən psixoloq olmalıdır, məsləhətçi olmalıdır. Sadəcə, qanun çərçivəsində ailələrə deyilir ki, get, bir aydan sonra gələrsən. Bu müddət ərzində ailələrə məsləhətlər verilməlidir, müzakirə aparılmalıdır. Tövsiyə etmək lazımdır ki, müəyyən qədər əziyyətə dözsünlər, qarşılıqlı olaraq müəyyən qədər güzəştə getsinlər, ailələrini qorusunlar. Hər bir ailədə maddi problem ola bilər, evsizlik, işsizlik ola bilər. Mən çox adama sual verirəm ki, məgər evlənəndə həyat yoldaşın prokuror idimi? Bu adam əvvəldən işsiz olub. İndi sən işsiz adama ərə getmisən, bu boşanma səbəbi olmamalıdır. Ali təhsili olmayan adam direktor olmalı deyildi ki... Gənclər ailə qurduqdan sonra əl-ələ verib maddi vəziyyətlərini düzəldə bilərlər, təhsillərini artıra bilərlər. Ailəyə müvəqqəti hal kimi baxmaq lazım deyil. Ailədə uşaq dünyaya gəlir. Məsuliyyətlə yanaşmaq lazımdır. Biz boşanmalarla bağlı dinləmələr keçirəcəyik, vətəndaş cəmiyyəti nümayəndələrini də dəvət etmişik. Görək bu məsələdə nə kimi həlli yolları ortaya qoya bilərik. Biz analarımızdan, nənələrimizdən nə görmüşüksə, onların hamısını demişik. Ancaq bunlar da bəzən yetərli olmur. Əsas amillər təhsilsizlik, bilgisizlikdir".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# BŞİH-in yeni idarəsi nə ilə məşğul olacaq?

## "Bu cür qurum bir çox ölkələrdə bu və ya digər formada mövcuddur"



**Nazirlər Kabinetinin Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində təsərrüfathesablı "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasına dair iki gün əvvəl verdiyi qərar maraq doğurub. Xüsusilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyəti ilə bağlı tənqidlərin yaranmağa başladığı bir məqamda BŞİH nəzdində yeni qurumun yaradılması rezonansa səbəb olub. Bir çoxları yeni MMC-nin ötən il prezidentin sərəncamı ilə ləğv edilmiş BŞİH Aparatı Memarlıq və Şəhərsalma Baş İdarəsinin funksiyalarını həyata keçirəcəyi fikrindədirlər.**

Xatırladaq ki, Nazirlər Kabinetinin qərarına əsasən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyətinin işçilərinin say həddi 16 ştat vahidi müəyyən edilib. Əmlak Məsələləri Dövlət Komitəsi MMC-nin nizamnaməsini təsdiq etməli və onun dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etməlidir.

Onu da qeyd edək ki, yeni qurumun hansı funksiyaları icra edəcəyi maraq doğurur. "Yeni Müsavat"a Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumata görə, Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC nə tikintiyə icazələrin verilməsi, nə də birbaşa tikinti-təmir işlərinin aparılması ilə məşğul olmayacaq: "Bu MMC-nin əsas fəaliyyəti dövlət vəsaiti hesabına Bakı şəhərində həyata keçiriləcək əsaslı tikinti və təmir məsələləri sahəsində strateji planların hazırlanması, görüləcək işlərin koordinasiya olunması və ayrılan vəsaitin səmərəli istifadəsinin təmin olunmasına nəzarətdən ibarət olacaq. Cəmiyyətin işçilərinin say həddi 16 ştat vahidi müəyyən edilib. Bu cür qurum bir çox ölkələrdə bu və ya digər formada mövcuddur".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# Nazirlik şagirdlər və müəllimlər arasında qızılca və H1N1 virusunun yayılmasına aydınlıq gətirib

**Təhsil Nazirliyi Azərbaycanda şagirdlər və müəllimlər arasında qızılca və A (H1N1) virusuna rast gəlinib-gəlinməməsi məsələsinə aydınlıq gətirib.**

Nazirlikdən "Report"un sorğusuna cavab olaraq bildirilib ki, məktəblilər və müəllimlər arasında sözügedən virusların yayılması barədə Təhsil Nazirliyinə rəsmi məlumat daxil olmayıb.

Qeyd edək ki, ölkənin baş infeksionisti Cəlal İsayev yoluxma hallarının adətən yaşlı insanlar, əsasən də tələbələr, yuxarı sinif şagirdləri arasında müşahidə olunduğunu deyib.

Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (RGEM) direktor müavini Afaq Əliyeva dekabr ayı ərzində qızılca ilə əlaqəli 55 yoluxma hadisəsinin təsdiq olunduğunu qeyd edib.

Bundan başqa, baş epidemioloq İbadulla Ağayev Azərbaycanda A/H1N1 virusu aşkarlanmış 16 nəfərin heç birinin xəstəxanaya yerləşdirilmədiyini, onların hamısının sağlam vəziyyətdə olduqlarını bəyan etmişdi.

YENİ MÜSAVAT

Son səhifə

N 29 (7199) 7 fevral 2019

# Pişikləri kirayə verən firma

Almaniyanın Köln şəhərində bugünlərdə qəribə bir firma fəaliyyətə başlayıb. Kirayə pişik firması bir neçə günlüyə, həftə ya aylığa pişik sahibi olmaq istəyənləri arzusuna çatdırır. Firmanın 37 yaşlı sahibi Mark İvon deyib ki, onlara daha çox gənc qızlar və valideynlər müraciət edir. Qızlar rəfiqələrindən və ya sevgililərindən ayrı qalanda təsəllini bu yumşaq tüklü heyvanda tapırlar. Valideynlər isə hesab edir ki, uşağa sevgi hissi aşılamaq üçün onu heyvanlara yönəltmək vacibdir. İlk növbədə uşağa pişik kimi zərərsiz heyvanın köməyi ilə heyvan sevgisi aşılanır. Pişiklərin bir aylıq kirayəsi 90 dollar civarındadır. İstəyənlər bir neçə günlük və ya həftəlik də pişik kirayələyə bilər ki, bu da günlük 3 dollar anlamına gəlir.



## Evlərindən ilan çıxdı, 2 milyon dollar istəyirlər



ABŞ-ın Merilend ştatındakı Annapolis şəhərində yaşayan ailə satın aldığı evin əvvəlki sahibini, habelə rieltor şirkətini məhkəməyə verib. Onlar maddi və mənəvi təzminat qismində 2 milyon dollar tələb edirlər. 4 yaşlı oğlu və 9 aylıq qızı olan Cudi Bruks deyir: "Evi alanda sevinmişdik. Çünki gözəl evdir. Təmirə başladıq. Lakin az sonra evdə ilanla qarşılaşdım. Çox qorxsam da, ərimin köməyi ilə ilanı öldürdüm. Daha sonra, qızım 4 aylıq olanda onun çarpayısında qıvrılıb yatmış ilan gördüm. Bir qədər keçdi, evdə ilanlar qaynaşmağa başladı. Evi tərk etdik, çünki o zəhərli ilanlar hamımızı öldürə bilərdilər".

Cudinin əri Ceffin dediyinə görə, 2014-cü ilin dekabr ayında bu evi 410 min dollara satın alıblar. Daha sonra ailə evdə genişmiqyaslı təmirə başlayıb və binanı normal hala salıblar.

İndi isə evdə çoxlu ilan olduğu üçün orada yaşamaq mümkün deyil.

Bu səbəbdən də Trakston roud, 631 ünvanda yerləşən evin sahibləri Ceff və Cudi Brukslar məhkəməyə üz tutaraq Barbara van Horn, Coan Broseker, habelə "Champion Realty, Inc." və "The Joan Broseker Revocable Trust" şirkətlərindən 2 milyon dollar tələb edirlər.

Rieltor şirkətləri "məhkəmə prosesini şərh etmirik" deyərək olayla bağlı açıqlama verməyiblər.

# Şir fil balasına hücum etdi və sonu oldu

Cənubi Luanqvadakı milli parkda ac şir fil balasına hücum edib. "Daily Mail"in xəbərinə görə, bir neçə saatdan sonra şir ölü vəziyyətdə tapılıb. Fil balası özünün üstün çəkisinə görə sağ qala bilib. O, bütün ağırlığı ilə şirin üstünə çöküb və sonuncu hücum məkanını dəyişənə qədər orada qalıb. Vəhşi heyvanların nadir mübarizə fotoları kanadalı fotoqraf Nyu Cey Uayta məxsusdur. Çəkilişlərdə fil balasının arıq şiri necə məğlub etməyə çalışdığı əksini tapır. Daha sonra o, hücumçunu təqib edir və qovur. "Heyvanların həyat, yaşamaq uğrunda necə mübarizə apardıqlarını izləmək çox çətin və ağır idi. Xüsusən o zaman ki, tərəflərdən birinin həyatı yeni başlayıb, digəri isə qocadır".

Fotoqrafın sözlərinə görə, o, parkda səyahət zamanı xəstə, arıq şiri görüb. Şir səhər saatlarında günəş şüalarının altında istirahət edirmiş və bədəni çox yorğun, yarıölü vəziyyətdə olub. "Onun arıq bədənindən, çıxmış sümüklərindən və halsız uzanmasından hiss olunurdu ki, əziyyət çəkir. Biz bir qədər uzağa gedəndə hiss etdim ki, onun halı çox pisdir və ölməyə sayılı dəqiqələr qalıb".

Hadisədən bir müddət sonra şir ölüb.



## Təsadüfən damarını kəsdi və öldü

Meşəyə göbələk yığmaq üçün gedən Polşa sakini təsadüfən damarını kəsib və qan itirdiyi üçün dünyasını dəyişib. Bu barədə "Dziennik Wshodni" nəşri xəbər verir. Starı Zamost bölgəsinin sakini təkbaşına meşəyə gedib. O, qohumlarına xəbər verib ki, tezliklə geri qayıdacaq. Amma bir neçə dəqiqə sonra qadın təcili yardım xidmətinə zəng edərək deyib ki, bıçaqla boğazını kəsib. Dispetçer hadisənin harada baş verdiyini dəqiqləşdirmək istəyəndə xətt kəsilib. Böyük ehtimalla 59 yaşlı zərərçəkmiş həmin vaxt huşunu itirib. Həkim və polis heyəti hadisənin baş verdiyi məkanı tapsa da, qadını xilas etmək mümkün olmayıb. Rayon prokurorluğu baş vermiş hadisənin istintaqını aparır. Qadının bıçaqla boğazını necə kəsə biləcəyi hələ də sual altındadır.

## Qoroskop




**QOÇ** - Başqalarının işinə müdaxilə etməyin, xüsusən də hüquqi müstəvidə və sənədlərlə bağlı məsələlərdə. Bunu bacarsanız, günün ləzzətini yaşaya biləcəksiniz. Nahardan sonra maddi irəliləyiş də gözlənilir.

**BUĞA** - Diqqətli olun, çünki ulduzlar ətrafınızda sizləri aldadanların artdığını bəyan edir. Başqa probleminiz olmayacaq. Bu gün ciddi gəliriniz gözlənilməsə də, büdcəniz boş qalmayacaq.

**ƏKİZLƏR** - İlk növbədə əsəblərinizi qoruyun ki, qarşınızda duran problemləri həll etməyə gücünüz çatsın. Həlli çətin görünən məsələlərə girişməyin. Göy qübbəsi büdcənizin artacağını mütləq sayır.

**XƏRÇƏNG** - Qarşınızda xoş bir gün durur. Məqsədlərinizə çatmaqda çətinliyiniz olmayacaq. Amma uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin, ələlxüsus da əgər onlardan xəstə olanı varsa.

**ŞİR** - Köhnə mübahisələrə, yarıtmaz tərəfdaşlarla haqq-hesab çürütməyə qayıtmayın. Əks təqdirdə, çoxsaylı uğursuzluqlarla rastlaşacaqsınız. Yalnız böyük ideyalarınız barədə düşünün.

**QIZ** - Ulduzlar təvəqqe edir ki, bu gün heç kimə yalan vədlər verməyəsiniz. Çünki xırda yanlışlıq sonrakı günlərdə sizə zərər yetirə bilər. Qarşılıqlı ünsiyyət zamanı eqoistlik etməyin. Hamıya dəyər verin.

**TƏRƏZİ** - Fevralın sonrakı mərhələsi üçün görəcəyiniz işləri indidən götür-qoy edin. Ən azından gün ərzində zəkanız iti olacaq, başınıza səmərəli ideyalar gələcək. Müqəddəs çağırışlara riayət edin.

**ƏQRƏB** - Aqressiv düşüncələri heç olmasa bu günlük arxa plana atın. Göy qübbəsi nicatınızın mərhəmətli və mülayimlikdən asılı olduğunu bildirir. Saat 17-dən sonra bütün təkliflərə "hə" deyin.

**OXATAN** - Pozulmuş enerjinizi bərpa etmək üçün dini tövsiyələrə riayət edin, müqəddəs insanları və yerləri ziyarət edin. Fəaliyyətdən daha çox mənəvi amillərə yer ayırın. Uzaq səfərlər də mümkündür.

**OĞLAQ** - Bu gün heç bir təhlükə yoxdur. Göy qübbəsi aldığınız bütün təkliflərə razılıq verməyinizi təvəqqe edir. Yalnız axşam saatlarında xırda mübahisələriniz mümkündür. Yəqin ki, təmkinli olacaqsınız.

**SUTÖKƏN** - Hiss olunur ki, bu həftə çox yorulmusunuz. Ona görə də bugünkü fəaliyyətinizi başa çatdıran kimi istirahət haqqında düşünün. Maddi durumunuz imkan versə, səfər də mümkündür.

**BALIQLAR** - Gücünüzü lazımsız sahələrə sərf etməyin. Məhz bu səbəbdən vacib işləriniz öz həllinə gecikir. Yaxşı olar ki, saat 11-dən etibarən özünüzdə təpər tapıb hərəkətə keçəsiniz. Vaxt itirməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bibliyanı satmaq istədilər, həbs edildilər



Türk polisi üç nəfər qaçaqmalçını qədim Bibliyanı oğurladığına görə həbs edib. Bu barədə "Anadolu" agentliyi xəbər verib. Təxmin edilir ki, kitab bizim eranın VIII əsrinə aiddir. Artefakt dəri üzlüyə və qızıl suyu ilə yazılışa malikdir. Bu kitabı xarici ölkələrə satmaq istəyən 3 nəfər həbs olunub. İstintaq çərçivəsində polis bu işdə iştirakçı olan daha 3 nəfəri də həbs edib.

2016-cı ildə mütəxəssislər qədim yəhudilərin dini kitablarından birini aşkarlamağa nail olmuşdular. Sözügedən kitabın 1.5 min yaşı var idi.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755